Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

61-ci cild

16 fevral 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

ALTINCI ÇAĞIRIŞ
AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİNİN
XV SESSİYASI İCLASININ

PROTOKOLU № 159

Milli Məclisin iclas salonu.
16 fevral 2024-cü il.

İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

İclasda Milli Məclisin 107 deputatı iştirak etmişdir.

Qeydiyyat	(saat 10.01 dəq.)
İştirak edir	104
Yetərsay	83

İclasa dəvət olunmuşdur:

Əli Əsədov, Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizəd.

İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:

1. Əli Hidayət oğlu Əsədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında.
2. “Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

3. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

5. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

Aşağıdakı məsələlər müzakirə edilmişdir:

Gündəlik haqqında.

Çıxış etmişdir: Sahibə Qafarova

Təklif: Gündəlik qəbul edilsin

Səsvermənin nəticələri	(saat 10.05 dəq.)
Lehinə	106
Əleyhinə	0

Bitərəf	0
Səs vermədi	0
İştirak edir	106

Nəticə: Qəbul edildi

1. Əli Hidayət oğlu Əsədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında.

Çıxış etmişlər: Sahibə Qafarova, Ziyafət Əsgərov, Fazil Mustafa, Elnur Allahverdiyev, Etibar Əliyev, Siyavuş Novruzov, Fəzail İbrahimli, Qüdrət Həsənquliyev, Əli Əsədov

Təklif: Qərar qəbul edilsin

Səsvermənin nəticələri	(saat 10.30 dəq.)
Lehinə	105
Əleyhinə	1
Bitərəf	1
Səs vermədi	0
İştirak edir	107

Nəticə: Qəbul edildi

2. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

Çıxış etmişlər: Sahibə Qafarova, Adil Əliyev, Sadiq Qurbanov, Vüqar Bayramov, Elşad Mirbəşir oğlu, Hikmət Məmmədov, Azay Quliyev, Aydın Hüseynov, Fəzail Ağamalı, Elnur Allahverdiyev, Rəşad Mahmudov, Məlahət İbrahimqızı, Tahir Rzayev

Təklif: Layihə birinci oxunuşda qəbul edilsin

Səsvermənin nəticələri	(saat 11.29 dəq.)
Lehinə	100
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	100

Nəticə: Qəbul edildi

3. Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

Çıxış etmişlər: Sahibə Qafarova, Səməd Seyidov, Fəzail Ağamalı

Təklif: Layihə birinci oxunuşda qəbul edilsin

Səsvermənin nəticələri	(saat 11.33 dəq.)
Lehinə	100
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	100

Nəticə: Qəbul edildi

4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

Çıxış etmişlər: Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Fazil Mustafa, Hicran Hüseynova, Qüdrət Həsənquliyev

Təklif: Layihə birinci oxunuşda qəbul edilsin

Səsvermənin nəticələri	(saat 11.47 dəq.)
Lehinə	99
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	1
İştirak edir	100

Nəticə: Qəbul edildi

5. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

Çıxış etmişlər: Sahibə Qafarova, Ziyafət Əsgərov

Təklif: Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

Səsvermənin nəticələri	(saat 11.48 dəq.)
Lehinə	100
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	100

Nəticə: Qəbul edildi

Təklif: Layihə qəbul edilsin

Səsvermənin nəticələri	(saat 11.49 dəq.)
Lehinə	100
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	100

Nəticə: Qəbul edildi

Təklif: Layihə ikinci oxunuşda qəbul edilsin

Səsvermənin nəticələri	(saat 11.49 dəq.)
Lehinə	99
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	1
İştirak edir	100

Nəticə: Qəbul edildi

6. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

Çıxış etmişlər: Sahibə Qafarova, Tahir Mirkişili, Siyavuş Novruzov, Fəzail Ağamalı, İltizam Yusifov, Aydın Hüseynov, Vahid Əhmədov

Təklif: Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

Səsvermənin nəticələri	(saat 11.51 dəq.)
Lehinə	98
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	2
İştirak edir	100

Nəticə: Qəbul edildi

Təklif: 1-ci və 2-ci maddələr qəbul edilsin

Səsvermənin nəticələri	(saat 12.04 dəq.)
Lehinə	102
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0

İştirak edir 102
Nəticə: Qəbul edildi

Təklif: 3-cü və 4-cü maddələr qəbul edilsin
Səsvermənin nəticələri (saat 12.05 dəq.)
Lehinə 103
Əleyhinə 0
Bitərəf 0
Səs vermədi 0
İştirak edir 103
Nəticə: Qəbul edildi

Təklif: Layihə ikinci oxunuşda qəbul edilsin
Səsvermənin nəticələri (saat 12.05 dəq.)
Lehinə 103
Əleyhinə 0
Bitərəf 0
Səs vermədi 0
İştirak edir 103
Nəticə: Qəbul edildi

7. "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

Çıxış etmişlər: Sahibə Qafarova, Tahir Rzayev, Vüqar Bayramov

Təklif: Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin
Səsvermənin nəticələri (saat 12.06 dəq.)
Lehinə 100
Əleyhinə 0
Bitərəf 1

Səs vermədi	1
İştirak edir	102

Nəticə: Qəbul edildi

Təklif: 1-ci maddə qəbul edilsin

Səsvermənin nəticələri	(saat 12.08 dəq.)
Lehinə	103
Əleyhinə	0
Bitərəf	1
Səs vermədi	0
İştirak edir	104

Nəticə: Qəbul edildi

Təklif: 2-ci maddə qəbul edilsin

Səsvermənin nəticələri	(saat 12.09 dəq.)
Lehinə	102
Əleyhinə	0
Bitərəf	1
Səs vermədi	0
İştirak edir	103

Nəticə: Qəbul edildi

Təklif: Layihə ikinci oxunuşda qəbul edilsin

Səsvermənin nəticələri	(saat 12.09 dəq.)
Lehinə	100
Əleyhinə	0
Bitərəf	1
Səs vermədi	0
İştirak edir	101

Nəticə: Qəbul edildi

8. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

Çıxış etmişlər: Sahibə Qafarova, Nurlan Həsənov

Təklif: Qanun qəbul edilsin

Səsvermənin nəticələri	(saat 12.10 dəq.)
Lehinə	104
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	104

Nəticə: Qəbul edildi

Azərbaycan Respublikası
Milli Məclisinin sədri **Sahibə Qafarova**

MİLLİ MƏCLİSİN İCLASI

16 fevral 2024-cü il. Saat 10.

Azərbaycan Respublikası Milli Məclisinin sədri
***Sahibə Qafarova** sədrlik edir*

Sədrlik edən. Xoş gördük, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hörmətli Əli müəllim, xoş gəlmisiniz.

Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

Qeydiyyat	(saat 10.01 dəq.)
İştirak edir	104
Yetərsay	83

Yetərsay var, biz iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bu il fevralın 7-də ölkəmizin siyasi həyatında tarixi əhəmiyyətli bir hadisə baş vermişdir. Demokratik və şəffaf şəraitdə keçirilən azad və ədalətli seçkilərdə möhtərəm cənab İlham Əliyevin parlaq qələbəsi onun Azərbaycan xalqı və dövləti qarşısında müstəsna xidmətlərinə verilən yüksək qiymətin ifadəsi olmuşdur.

Ölkəmizin bütün ərazisində keçirilən növbədənkənar

Prezident seçkiləri milli inkişaf tariximizə Zəfər seçkiləri kimi daxil olmuşdur. Xalqımız Azərbaycanın qüdrətli dünya dövlətinə çevrilməsində həlledici rolu olan liderinə sonsuz inam və etimadını bir daha ifadə etmiş, Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş siyasi xəttin davam etməsini istədiyini bildirmişdir. Bu müdrik seçim bölgədə və dünyada mürəkkəb proseslərin cərəyan etdiyi bir dövrdə Azərbaycanda səriştəli və məsuliyyətli rəhbərlik amilinin davamlılığını təmin etmişdir.

Hörmətli həmkarlar, onu da deyim ki, mən hamımızın adından möhtərəm cənab İlham Əliyevə təbrik məktubu göndərmişəm. Yenidən dövlət başçısı seçilməsi münasibəti ilə ona səmimi təbriklərimizi çatdırmış və xoş arzularımızı ifadə etmişəm. *(Alqışlar.)*

Hörmətli deputatlar, bizə qürur verən bir məqam da bundan ibarətdir ki, möhtərəm cənab Prezidentin andiçmə mərasiminin Milli Məclisdə keçirilməsi ənənə halını almışdır. Bu da dövlətimizin rəhbərliyi tərəfindən parlamentə verilən önəmi nümayiş etdirir.

Fevralın 14-də andiçmə mərasimində söylədiyi nitqdə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev ötən 20 ildən artıq dövrdə ölkəmizin keçdiyi inkişaf yolunu geniş təhlil etdi, bu dövrü uğur və qələbələrlə dolu olan illər kimi dəyərləndirdi. Eyni zamanda, qarşıya çıxan çətinlikləri və problemləri, xüsusən Qarabağın azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpası məsələsini xalqımızın yumruq kimi birləşərək həll etdiyini bildirdi.

Proqram xarakteri daşıyan dərin məzmunlu nitqində dövlət başçısı yeni tarixi dövrdə qarşıda dayanan vəzifələrə nəzər saldı, dövlətimizin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, iş-

ğaldan azad edilmiş torpaqların bərpası, sosial-iqtisadi inkişaf, texnoloji üstünlüyün təmin edilməsi, milli-mənəvi dəyərlərə sadiq olan gənc nəslin yetişdirilməsi, azərbaycançılıq məfkurəsinin gücləndirilməsi və digər sahələrdə görüləcək işlərdən danışdı, xarici siyasət istiqamətində yeni üfüqlərin açılması zərurətini qeyd etdi.

Hörmətli həmkarlar, əminliklə söyləmək olar ki, möhtərəm cənab Prezidentin siyasi məharəti və səriştəsi, yaradıcı təfəkkürü və yenilməz əzmi dövlətimizin inkişafı naminə qarşıya qoyulan bütün hədəfləri əldə etməyə imkan yaradacaqdır. Milli Məclis isə dövlət başçısının uzaqgörən daxili və xarici siyasətini qanunvericilik səviyyəsində dəstəkləmək üçün öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə münasibət bildirək. Buyurun.

Səsvermənin nəticələri	(saat 10.05 dəq.)
Lehinə	106
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	106
Nəticə: Qəbul edildi	

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bu gün gündəlikdə 8 məsələmiz var və 1-ci məsələ Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizədlik haqqında qərar layihəsidir.

Hörmətli deputatlar, Azərbaycan Respublikası Konstitusiyasının 118-ci maddəsinin II hissəsinə uyğun olaraq,

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Baş nazir vəzifəsinə Əli Hidayət oğlu Əsədovun namizədliyinə razılıq verilməsi üçün Milli Məclisə müraciət etmişdir.

Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 9-cu bəndinə uyğun olaraq, parlament Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsinə razılıq verilməsi məsələsinə dair qərar qəbul etməlidir.

Hörmətli həmkarlar, Əli müəllim Əsədovu hamımız yaxşı tanıyırıq. O, Moskva Xalq Təsərrüfatı İnstitutunu bitirmişdir. İqtisadçı alim və mütəxəssisdir. İqtisadiyyat üzrə fəlsəfə doktoru, dosentdir. 1980–1989-cu illərdə Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda işləmiş, 1989-cu ildən Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunda dosent, kafedra müdiri vəzifələrində çalışmışdır.

Əli Əsədov siyasi fəaliyyətə 1992-ci ildə Yeni Azərbaycan Partiyasının sıralarına daxil olmaqla başlamışdır.

Əli müəllim birinci çağırış Milli Məclisin deputatı, İqtisadi siyasət komissiyasının üzvü olmuşdur. Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə 1998-ci ilin aprel ayında Prezidentin İqtisadi məsələlər üzrə köməkçisi təyin edilmişdir. Daha sonra o, Prezident Administrasiyası rəhbərinin müavini, Prezidentin köməkçisi – İqtisadi məsələlər şöbəsinin müdiri vəzifələrində işləmişdir.

2019-cu il oktyabrın 8-dən Azərbaycan Respublikasının Baş naziri vəzifəsində çalışmışdır, bu il fevralın 14-dən Baş nazir səlahiyyətlərini icra edir. Əli Əsədovun iqtisadi məsələləri dərindən bilən təcrübəli mütəxəssis olması Nazirlər Kabinetinin fəaliyyətinin müasir tələblər səviyyəsində qurulmasında mühüm rol oynayır. Əli müəllim

yüksək işgüzar və mənəvi keyfiyyətlərə malik olan, bütün bilik və bacarığını işə sərf edən bir insandır.

Hörmətli həmkarlar, əminliklə söyləmək olar ki, hörmətli Əli Əsədov Azərbaycan Respublikasının Baş naziri vəzifəsində fəaliyyətini layiqincə davam etdirəcəkdir.

İndi isə, hörmətli deputatlar, biz bu məsələnin müzakirəsinə başlayırıq. Çıxışa yazılmaq istəyənlər buyurub yazılsınlar. Ziyafət Əsgərov. Ziyafət müəllim, buyurun.

Z.Əsgərov. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli dəvət olunmuş şəxslər. Bu gün biz çox mühüm bir məsələnin – Azərbaycan Respublikasının Prezidenti tərəfindən hörmətli Əli müəllim Əsədovun yenidən Baş nazir vəzifəsinə təyin olunmasına Milli Məclisin razılıq verməsi məsələsinin müzakirəsinə başlamışıq.

Hörmətli xanım sədr, qeyd etdiyiniz kimi, biz artıq fevralın 14-də möhtərəm cənab Prezidentin andiçmə mərasiminin canlı şahidi olduq. Həddindən artıq parlaq və məzmunlu bir çıxış idi. Mən deyərdim ki, Azərbaycanın gələcək inkişaf perspektivlərini müəyyən edən yol xəritəsi idi. Yol xəritəsində cənab Prezident Azərbaycanın inkişaf perspektivləri, Azərbaycanın gələcəyi haqqında çox nikbin mesajlar verdi. Hesab edirəm ki, ümumiyyətlə, Azərbaycanın bundan sonra sosial-iqtisadi inkişafı ilə əlaqədar məsələlər, Azərbaycan iqtisadiyyatının daha da dirçəldilməsi ilə bağlı qarşıda duran məsələlər – butün bunlar hamısı onu deməyə əsas verir ki, Azərbaycanda çox güclü Baş nazir olmalıdır.

Siz artıq qeyd etdiniz, Əli müəllimin bioqrafiyası çox zəngindir. Əli müəllimi şəxsən bir insan olaraq mən 1992–1993-cü illərdən, Yeni Azərbaycan Partiyası yaradılandan tanıyıram. Eyni zamanda, Əli müəllim çox gözəl profes-

sionaldır, iqtisadiyyatı çox gözəl bilir. Moskvanın ən nüfuzlu institutlarından birində təhsil alıb. Əli müəllimin Baş nazir vəzifəsində 5 illik fəaliyyəti göstərdi ki, o, həqiqətən, yerində olan insandır, yerində olan kadrdır. Möhtərəm cənab Prezidentə, Azərbaycan xalqına, Azərbaycan dövlətinə sadiq olan bir insandır.

Hesab edirəm ki, biz əgər Əli müəllimin yenidən Baş nazir seçilməsinə razılıq versək, – inanıram ki, bütün parlament buna razılıq verəcək, – bu, Azərbaycan xalqının həyat rifahının daha da yüksəldilməsi üçün hökumətin fəaliyyətinə yenidən yüksək səviyyədə şərait yaratmış olar. Eyni zamanda, hesab edirəm ki, bu gün cənab Prezidentə onun ətrafında sağlam bir Nazirlər Kabineti lazımdır. Bu Nazirlər Kabinetinin başında Əli müəllimin olması, hesab edirəm ki, çox yerində olan məsələdir, çox məntiqi məsələdir. Ona görə də mən vaxtınızı çox almaq istəmirəm, çox böyük məmnuniyyətlə Əli müəllimin namizədliyini dəstəkləyirəm, müdafiə edirəm və hörmətli deputatları da bu namizədə səs verməyə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

Sədrlik edən. Çox sağ olun, Ziyafət müəllim. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

F.Mustafa. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli qonaqlar. Mən də hesab edirəm ki, ölkə Prezidentinin andiçmə mərasimində çıxışının Azərbaycan cəmiyyəti üçün bir yol xəritəsi xarakteri daşıdığını cəmiyyətimiz bütövlüklə qəbul edir. Orada ana xətt, əsasən, 3 istiqamətdə qurulmuşdu. Birinci növbədə Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesidir. İkinci, Ermənistanla münasibətlərin sülh müqaviləsi səviyyəsində yekunlaşması, Zəngəzur dəhlizinin açılması istiqamətində. Üçüncü isə, türk dünyası ilə inteqrasiyanın artımının ən

yüksək səviyyəyə, zirvə səviyyəsinə qaldırılması istiqamətində xətlər idi. Bu yol xəritəsi Azərbaycanın yaxın gələcəkdə izləyəcəyi əsas istiqamətlər kimi götürüləcəkdir.

Belə bir vəziyyətdə bu məsələdə birinci növbədə ixtisaslaşmış, peşəkar bir komandanın bu funksiyanı həyata keçirməsi olduqca zəruridir. Artıq yeni dövrdə siyasət məsələsi bir qədər arxa planda qalacaq. Birinci növbədə iqtisadi, sosial inkişafla bağlı məsələlər daha çox önə çıxmağa başlayacaq. Çünki vaxtı ilə işğalda olan torpaqlarımızın, haqqımızın geri qaytarılması istiqamətində diplomatik səyləri gücləndirmək üçün beynəlxalq arenada işlər görürdük. İndi ağırlıq daha çox Qarabağın bərpası və iqtisadi inkişafa yönələcək.

Belə bir vəziyyətdə Əli Əsədov kimi təcrübəli bir dövlət xadiminin, eyni zamanda, iqtisadçı alimin Nazirlər Kabinetinə başçılıq etməsi məntiqlidir və ölkə Prezidentinin seçimi, hesab edirəm ki, məhz bu perspektivlərə yönəlik bir seçimdir.

Təbii ki, Əli müəllim 2019-cu il oktyabrın 8-də seçilib. Diqqət edirsinizsə, 4 aydan sonra Azərbaycanda COVID-19 pandemiyası başladı və xeyli qadağalar, xeyli məhdudiyyətlər, çətinliklər dövrü başladı. Onda istər modul xəstəxanaların tikilməsi, istərsə də operativ qərargahın fəaliyyətinin tənzimlənməsi – bu funksiyalar məhz onun Baş nazir olduğu dövrdə olduqca keyfiyyətli şəkildə həyata keçirildi. Digər tərəfdən isə, uzun illər ölkə Prezidentinin köməkçisi kimi iqtisadi məsələlərə də baxdığına görə bu sahədə xeyli təcrübəyə malikdir. Mən düşünürəm ki, indiki vəziyyətdə məhz bu tərkibdə, bu komandanın, – həm də Qarabağ Zəfərinin təşkilində ən böyük iştirakı olan bir hökumətin fəaliyyətindən söhbət gedirsə, burada Baş nazir olaraq Əli müəllimin böyük rolu

olduğunu qeyd etməliyik, ölkə Prezidentinin siyasətinin həyata keçirilməsi funksiyasını layiqincə yerinə yetirəcəyinə inanıram və onu dəstəkləməyə çağırıram.

Sədrlik edən. Çox sağ olun. Elnur Allahverdiyev. Buyurun.

E.Allahverdiyev. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, hörmətli media nümayəndələri, hörmətli qonaqlar. Mən cənab Prezident İlham Əliyevin hörmətli Əli Əsədovun hökumətə yenidən rəhbərlik etməsi təşəbbüsünü dəstəkləyirəm.

Dövlətimizin qarşısında böyük iqtisadi hədəflər var. Həyata keçiriləcək layihələrimiz mövcuddur. Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, orada yeni istehsal sahələrinin fəaliyyətə başlaması kimi işlər artıq həyata keçirilir və bizi bundan daha artığı gözləyir. Bu baxımdan, hesab edirəm ki, cənab Prezidentin təklifi həm operativlik baxımdan olduqca vacibdir, həm də indiyə qədər görülən işlərin ardıcıllığı və davamlılığı nöqteyi-nəzərdən tarixi əhəmiyyətə malikdir.

Biz Əli müəllimin rəhbərliyi ilə hökumətimizin ötən illərdəki effektiv fəaliyyətini görmüşük. Hökumət bütöv halda, mütəşəkkil qaydada, işlək komanda şəklində baş verə biləcək çətinlikləri öncədən aradan qaldırıb, yaxud mövcud problemlərin həllində özünü olduqca bacarıqlı yöndən göstərib və bu nöqteyi-nəzərdən biz bunu unutmamalıyıq.

Biz VI çağırış Milli Məclis olaraq son 4 ilin büdcə müzakirələrində iştirak etmişik və unutmaq olmaz, istər 44 günlük Vətən müharibəsində, istərsə də pandemiya zamanında hər il artan dinamikanın şahidi olmuşuq. İldən-ilə büdcə göstəricilərimiz müxtəlif komponentlər üzrə rekord nəticələr göstərib və göstərəcəkdir. Biz buna əminik.

Hesab edirəm ki, cənab Prezidentin təklifi və təşəbbüsü reallığımızdan irəli gəlir və biz bu təklifi dəstəkləməliyik. Diqqətinizə görə təşəkkür edirəm.

Sədrlik edən. Çox sağ olun. Etibar Əliyev. Buyurun.

E.Əliyev. Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar. Nazirlər Kabineti hər il Milli Məclisdə hesabat verir. Bu ənənəvi illik hesabatlar kifayət qədər əhatəli və ölkənin sosial-iqtisadi həyatının mənzərəsini görmək, prosesləri analiz etmək üçün geniş məlumatlarla zəngin olur. Bütövlükdə, biz müşahidə edirik ki, hökumətin fəaliyyəti və hesabatlılığı yeni dövrün tələblərinə uyğun olaraq, ilbəil təkmilləşir və bizim dəstəyimizi alır.

Hörmətli Əli Əsədov hər zaman hesabatların təqdim olunmasından sonra bütün deputatların suallarını səmimiyyətlə cavablandırır, qaranlıq məsələ qalmır. Əli müəllim işlədiyi dövrlərdə öz peşəkar komandası ilə Nazirlər Kabinetinin qarşısında duran bütün vəzifələri layiqincə yerinə yetirib.

Yeni dönəmdə Nazirlər Kabineti hansı hədəfləri seçməli və vaxt itirmədən həmin hədəflərə doğru irəliləməlidir? Düşünürəm ki, hökumətin növbəti fəaliyyətində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi və bu sənəd çərçivəsində hazırlanmış "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasına dair nəticələr ciddi təhlil olunacaq və hesabatlarda yer alacaq.

Artıq 3 ilə yaxındır ki, ictimai maliyyə islahatları çərçivəsində 3 pilot sektorda – təhsil, kənd təsərrüfatı və ekologiya sektorlarında büdcə xərclərinin səmərəliliyini artırmaq üçün nəticə əsaslı büdcə tərtibi prosesinə keçid başlayıb. Bu istiqamətdə işlər ürəkaçan deyil və hesabatlıq şəxsən məni qane etmir. Nazirlər Kabineti yenidən bu

prosesi ciddi nəzarətə götürməlidir.

Nazirlər Kabinetinin 2024-cü il 6 fevral 73 nömrəli qərarı ilə Qarabağ Universitetinin nizamnaməsi təsdiq olunmuşdur. Bu universitet sürətli inkişaf edən universitetlər sırasında yer almalıdır və Nazirlər Kabineti bu işlərə nəzarət funksiyasını üzərinə götürməlidir.

Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev andiçmə nitqində olduqca maraqlı bir məqamı önə çəkdi: "Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi – bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks təqdirdə, biz geridə qalacağıq. Biz isə geridə qala bilmərik... Ona görə, texnoloji inkişafa nail olmasaq, – burada geniş, yəni bir neçə min, 10 minlərcə azərbaycanlı bu işdə olmasa, – biz geridə qala bilərik. Ona görə, hesab edirəm ki, bütün qurumlar və eyni zamanda, cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir".

Bu istiqamətdə geniş və rasional tədbirlər planı hazırlanmalı və görülən işlərin mütəmadi monitorinqi aparılmalıdır.

Cənab Prezidentin bu dəyərli fikirlərinin fəlsəfəsi nədən ibarətdir? Dünya çox yüksək sürətlə 4-cü Sənaye inqilabı yolunda addımlayır. Bizim sənaye parklarımız yalnız məhsul istehsal etmək xatirinə yaradılmamalıdır. Aşağı və orta texnoloji mürəkkəblikdə məhsulların istehsalı üzrə, ümumiyyətlə, ixtisaslaşmamalıdır. Hədəf yalnız orta, yüksək və daha yüksək texnoloji, rəqabət qabiliyyətli sahələrdə ixtisaslaşma olmamalıdır. Bu, həm də ölkədə təhsil sisteminin sürətlə və köklü surətdə dəyişdirilməsini, universitetlər və sənaye arasında əməkdaşlığın formalaş-

dırılmasını, elmin kommersiyalaşdırılmasını, elmə çəkilən xərclərin əhəmiyyətli dərəcədə artırılması ilə yanaşı, bu xərclərin səmərəliliyini ölçən keyfiyyətli sistemin qurulmasını tələb edir. Qaçılmaz situasiya yaranır. 4-cü Sənaye inqilabının arxasında gedən toplumları bu prosesin qalibləri texnoloji cəhətdən geridə qalmış periferiyalara çevirəcəklər. Düşünürəm ki, Nazirlər Kabineti gələcək hesabatlarında 4-cü Sənaye inqilabına keçidin vəziyyətini və qarşıda duran vəzifələri əks etdirən məlumatı müfəssəl şəkildə bizə təqdim edəcəkdir.

Mən də deputat həmkarlarım kimi, hörmətli Əli Əsədovun Baş nazir vəzifəsinə təyinatının lehinə səs verəcəyəm. Təşəkkür edirəm, sağ olun.

Sədrlik edən. Sağ olun. Düşünürəm ki, bütün bunların hamısını həyata keçirmək üçün Milli Məclis tərəfindən də obyektiv təhlil, obyektiv tənqid olmalı və obyektiv təkliflər də vermək lazımdır. Siyavuş Novruzov. Buyurun.

S.Novruzov. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli Əli müəllim, hörmətli deputatlar. Doğrudan da, ölkəmizdə çox uğurla keçirilən Zəfər seçkilərindən sonra, bir neçə gün bundan qabaq möhtərəm cənab Prezidentimizin andiçmə mərasimini hər birimiz burada izlədik, qulaq asdıq, tapşırıqlar verildi və gələcəyə baxış nədən ibarət olmalıdır, hər bir deputat artıq özü üçün müəyyən etdi. O baxımdan indi ölkənin Baş nazirinin təyin olunması ilə əlaqədar hörmətli Əli müəllimin namizədliyinin Milli Məclisə təqdim olunması, doğrudan da, təqdirəlayiqdir.

Əli müəllimi burada oturanlardan ən çox tanıyan insanlardan biri də mənəm. Çünki 1992-ci ildə Yeni Azərbaycan Partiyasının yaranmasında, formalaşmasında Əli müəllimin xüsusi rolu, xüsusi xidmətləri olub. Partiyanın

iqtisadi proqramının yazılmasında Əli müəllimin rolu olub. Əli müəllim burada fəal şəkildə iştirak edib və partiyanın ilk proporsional siyahısı ilə məhz Milli Məclisə deputat seçilib. Eyni zamanda, Əli müəllim bu dövrlərdə YAP-ın iqtisadiyyat komissiyasına rəhbərlik edib. Həmçinin Əli müəllim deputat olduğu vaxt, fəaliyyət göstərdiyi dövrdə həm partiya, həm də Milli Məclis xətti ilə uzun müddət paralel olaraq, ölkəmizi beynəlxalq təşkilatlarda, beynəlxalq qurumlarda təmsil edib.

Əli müəllimin Baş nazir kimi 5 illik fəaliyyəti elə bir dövrə düşmüşdü ki, həm COVID, həm də müharibə məsələsi var idi, doğrudan da, çox çətin və ağır bir dövr idi. Möhtərəm Prezidentimizin rəhbərliyi altında uğurlu işlər həyata keçirilirdi və bu proseslərin, onların yaratdığı səbəblərin aradan qaldırılmasında Nazirlər Kabineti Əli müəllimin rəhbərliyi ilə çox fəal şəkildə iştirak edirdi. Bir tərəfdən, Qarabağ əlilləri, şəhid ailələri, onların sosial təminatları, mənzil-məişət məsələləri ilə əlaqədar mütəmadi müraciətləri, nəqliyyatla bağlı müraciətləri, eyni zamanda, cəbhə bölgəsinə, başqa-başqa yerlərə, işğaldan azad olunmuş ərazilərə vəsaitlərin ayrılması və sair. Bu proseslərin hamısında, demək olar ki, ölkənin yeni dövr üçün aparılan işlərində Nazirlər Kabineti Əli müəllimin başçılığı altında çox böyük işlər gördü.

Əli müəllim 23 il YAP-ın Siyasi Şurasının üzvü olub və siyasi şuranın üzvü kimi də çox fəal şəkildə partiyanın bütün tədbirlərində həm məruzəçi kimi, həm də digər layihələrin həyata keçməsində iştirak edib. Burada qeyd olundu, həm Ulu Öndərin, həm də möhtərəm cənab Prezidentimizin köməkçisi vəzifəsində fəaliyyət göstərdiyi vaxtda ölkə iqtisadiyyatının qurulması, onun inkişafı, regionlarda sosial-iqtisadi inkişafın həyata keçməsi üçün

proqramların hazırlanmasında Əli müəllim fəal iştirak edib.

Mən də burada deyilənlərə qoşularaq qeyd etmək istəyirəm ki, bütün həmkarlarımı bu məsələyə səs verməyə çağırıram. Əli müəllim, demək olar ki, ilk Baş nazir olacaq ki, Azərbaycanın bütün ərazisində Baş nazir kimi fəaliyyətə başlayacaq. İndiyə qədər olan dövrdə hələ heç bir Baş nazir bütün ərazidə öz səlahiyyətlərini həyata keçirməyibdir. Əli müəllimə bundan sonra da uğurlar diləyək ki, bütün ölkə ərazisində səlahiyyətlərini həyata keçirsin. Uğurlar arzulayıram. Sağ olun.

Sədrlik edən. Çox sağ olun, Siyavuş müəllim. Fəzail İbrahimli. Fəzail müəllim söz istəmişdi. Buyurun, Fəzail müəllim.

F.İbrahimli. Təşəkkür edirəm. Mən sizi darıxdırmayacağam, bir neçə kəlmə istəyimi ifadə edim, yəqin ki, sədrin məsləhəti ilə səsə qoyulacaq.

Bu gün respublikanın ən yüksək vəzifələrindən birinə – Baş nazir vəzifəsinə namizəd müzakirə olunur. Belə bir möhtəşəm vəzifənin tutulması üçün insanlar özündə hansı keyfiyyəti əks etdirməlidir? Birinci, peşəkarlıq. Sahibə xanımın Əli müəllimin qısa tərcümeyi-halı haqqında dedikləri belə bir fikri söyləməyə əsas verir ki, Əli müəllim respublikanın ən yüksək səviyyəli peşəkar mütəxəssislərindən biridir.

İkinci, sədaqət – dövlətə, millətə, insanlara, özünə və ətrafına. Ulu Öndərin bir sözü var, deyir, insan həyatda hər şeyə nail ola bilər. Dil öyrənə bilər, təkmilləşə bilər, ancaq insan üçün iki keyfiyyət anadangəlmə olmalıdır. Sədaqət, yenə də sədaqət. Əli müəllimin keçdiyi həyat yolu, ona göstərilən etimad, bu gün məhz təqdimat verilməsi yenə də Əli müəllimin bu vəzifəyə layiq olduğunu ifadə edir. Təsadüfi deyil ki, elə birbaşa onun təyinatı, təqdimatı verildi.

Ən mühüm məsələlərdən biri vəzifədə olan insanların insanlara səmimiyyətidir. Əli müəllimlə ünsiyyətdə olan hər bir insan onun səmimiyyətini tam aydın görür. Azərbaycan cəmiyyətində bu gün çox böyük quruculuq işləri gedir. Hər bir Azərbaycan insanının səmimiyyətə ehtiyacı var: məmurların səmimiyyətinə ehtiyacı var, deputatların səmimiyyətinə ehtiyacı var, ətrafındakıların səmimiyyətinə ehtiyacı var. Bu cəhətdən də Əli müəllim, hesab edirəm ki, layiqdir. Bütün bunların hamısını sistemə alsaq, deyə bilərik, ideyaca mətin, hərtərəfli inkişaf etmiş, yeni cəmiyyət quruculuğuna son dərəcə sadiq olan Əli müəllim Baş nazir vəzifəsinə layiqdir. Təşəkkür edirəm.

Sədrlik edən. Çox sağ olun, Fəzail müəllim. Hörmətli həmkarlar, artıq üçüncü dəfədir səsə qoymaq təklifi var.

Yerdən. *(Eşidilmir.)*

Sədrlik edən. Təkidlə Qüdrət müəllim... Buyurun. Bir dəqiqə, buyurun.

Q.Həsənquliyev. Hörmətli sədr, imkan yaratdığınıza görə çox təşəkkür edirəm. Hörmətli həmkarlar, media nümayəndələri. Əlbəttə, Əli müəllimə bir insan kimi mənim də hörmətim var. Amma ona ünvanlanacaq suallarım da var. Cənab Prezident ayın 14-də andiçmə mərasimində qeyd etdi ki, Azərbaycanda yeni bir dövr başlayır. Əli müəllimdən soruşmaq istəyirəm ki, bu dövr özünü nədə ehtiva edəcək və nədə göstərəcək?

İkincisi, hökumət repetitorluğa qarşı, bunun qarşısının alınması üçün hansısa addımlar atmaq barədə düşünürmü?

Cənab Prezident söylədi ki, biz Türkiyə ilə, türk dövlətləri ilə daha sıx inteqrasiya olunmalıyıq. Bu baxımdan Türkiyə ilə ümumi bazar yaradılması barədə hər hansı bir ideya, düşüncələr, fikirlər varmı?

Bundan başqa, hesab edirəm ki, kasıb insanların nə Əli

müəllimə, nə də bizim hökumət üzvlərinə heç bir pisliyi keçməyib. Ona görə də quru sərhədlər nə vaxt açılacaq ki, insanlar, tutaq, Gürcüstana gedib öz qohumlarını...

Sədrlik edən. Sağ olun. Hörmətli həmkarlar, 30-dan çox deputat yazılmışdı və mən elə hiss eləyirəm ki, bu dəqiqə çıxış eləyə bilməyənlərin hamısı suallara yazılacaq. Siz bilirsiniz ki, bu yaxınlarda hökumətin Milli Məclis qarşısında hesabatı olacaq. Suallarınızı onda verərsiniz. Mən Əli müəllimə söz verməmişdən əvvəl indi məsələni səsə qoyuram. Xahiş edirəm, o suallara yazılanlar da suallarını çıxarsınlar. Səsə qoyuram, buyurun, münasibət bildirin.

Səsvermənin nəticələri	(saat 10.30 dəq.)
Lehinə	105
Əleyhinə	1
Bitərəf	1
Səs vermədi	0
İştirak edir	107
Nəticə: Qəbul edildi	

Sədrlik edən. Çox sağ olun, qərar qəbul edildi. Əli müəllim, biz Sizi təbrik edirik və əgər sözünüz varsa, xahiş edirəm, kürsüyə buyurun.

Ə.Əsədov, *Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə namizəd.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. İlk öncə Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə mənim namizədliyimi irəli sürdüyünə və mənə göstərilən yüksək etimada görə Azərbaycan Respublikasının Prezidenti Zati-aileləri möhtərəm cənab İlham Heydər oğlu Əliyevə dərin təşəkkürümü bildirirəm. Hörmətli de-

putatlar, fürsətdən istifadə edərək, müstəqil Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq, bütün suveren ərazimizi əhatə edən, şanlı tariximizə Zəfər seçkisi kimi əbədi həkk olunacaq Prezident seçkilərində inamlı və möhtəşəm qələbə münasibəti ilə möhtərəm cənab Prezidenti bu yüksək kürsüdən bir daha təbrik edirəm. *(Alqışlar.)*

Qədirbilən Azərbaycan xalqı şəffaf və demokratik şəraitdə öz layiqli və ədalətli seçimini edərək bir daha dövlət başçımıza yüksək inam və etimadını göstərdi.

Müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə zamanın çağırışları və mürəkkəb geosiyasi şərtlər fonunda həyata keçirilən siyasi kurs Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsini, respublikamızın bölgənin lideri və söz sahibi olan, dünya birliyində öz layiqli yerini tutan, iqtisadi və hərbi gücü ilə öz problemlərini həll edən qüdrətli bir dövlətə çevrilməsini təmin etmişdir. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə rəşadətli ordumuzun 30 ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad etməsi, 2023-cü ilin antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunması müstəqil dövlətçilik tariximizin ən şanlı səhifəsidir. Bu gün Azərbaycan postmüharibə dövrünün çağırışlarına uyğun olaraq, yeni inkişaf strategiyası ilə inamla irəliləyir, milli dövlət quruculuğunun növbəti, şərəfli mərhələsini yaşayır.

Hörmətli deputatlar, fevral ayının 14-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində cənab Prezident son 20 ildə Azərbaycanın daxili və xarici siyasətində əldə edilən nailiyyətlər və uğurlar barədə ətraflı danışmışdır. Andiçmə mərasimində dövlət başçısı, eyni zamanda, ölkəmizin və

cəmiyyətimizin hərtərəfli inkişafının əsas istiqamət və hədəflərini müəyyən edən proqram xarakterli geniş çıxış etmişdir. Növbəti dövrdə müdafiə və milli təhlükəsizliyin daha da gücləndirilməsi, hərbi sahədə texnoloji inkişaf və hərbi sənaye kompleksinin təkmilləşdirilməsi, silahlı qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi əsas istiqamətlər olacaqdır.

Cəmiyyətimizin həyatının bütün sahələrində, o cümlədən sosial sahədə inkişaf dövlət başçımızın hər zaman diqqət mərkəzində olub və olacaqdır. Azərbaycan vətəndaşının rifahının yaxşılaşdırılması, o cümlədən şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi hökumətin qarşısında ən önəmli vəzifə olaraq duracaqdır. Təbii ki, cənab Prezidentin öz çıxışında qeyd etdiyi kimi, sosial rifahla bərabər, əhalimizin, əsasən, gənclərin təhsili, onların milli-mənəvi dəyərlərə və ənənələrə, azərbaycançılıq prinsipinə əsaslanaraq formalaşması, müasir çağırışlara və texnologiyalara yiyələnməsi 4-cü Sənaye inqilabı dövründə gələcək inkişafımızın təminatçısı olacaqdır.

Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün əsas prioritetlərimizdən biri yüksək rəqabətli insan kapitalının formalaşdırılmasıdır. Bunun üçün müasir təhsil, sağlam cəmiyyət, idman, mədəniyyət, innovasiyaların təşviq edilməsi əsas şərtlərdir. Əlbəttə ki, bütün bunlara nail olmaq üçün müasir çağırışlara cavab verən, dayanıqlı və güclü iqtisadiyyatın, o cümlədən qeyri-neft iqtisadiyyatının sürətli inkişafı, maliyyə müstəqilliyimizin daha da gücləndirilməsi təmin edilməlidir.

Növbəti dövrdə Azərbaycan hökumətinin işinin əsas prioritetlərini bu hədəflərin reallaşdırılması, bununla bağlı

qarşıda duran vacib çağırışlara çevik reaksiya verməsi təşkil edəcəkdir. Bu baxımdan 2030-cu ilədək milli prioritetləri özündə ehtiva edən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış proqramı və digər irimiqyaslı proqramlar bu istiqamətdə fəaliyyətimizin səmərəli şəkildə davam etdirilməsi üçün yaxşı zəmin yaradır. Bu prioritetlərdən biri təmiz ətraf mühit və "yaşıl artım" ölkəsidir. Təsadüfi deyil ki, COP29 kimi mötəbər beynəlxalq tədbir məhz ölkəmizdə elan edilmiş "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilir.

Hörmətli xanım sədr, hörmətli deputatlar. 2019-cu ildə cənab Prezident tərəfindən ilk dəfə Baş nazir vəzifəsinə namizədliyimin irəli sürülməsi zamanı bu yüksək kürsüdən çıxışımdan ötən müddətdə Nazirlər Kabineti ilə Milli Məclis arasında fəal birgə iş aparılmışdır. Ötən müddət ərzində hökumət və ölkəmizin qanunvericilik orqanı arasında konstruktiv və səmərəli işbirliyi qurulmuş, müxtəlif qanun layihələrinin və sənədlərin məhsuldar birgə müzakirəsi keçirilmişdir. Ona görə də hörmətli deputatlarımıza təşəkkürümü ifadə edirəm. Ümidvaram ki, növbəti müddətdə də bu xoş ənənəni davam etdirəcəyik və birgə səylərimiz bundan sonra da ölkəmizin tərəqqisinə və xalqımızın rifahının daha da yaxşılaşdırılmasına xidmət edəcəkdir. Onu da qeyd edim ki, – burada hörmətli xanım sədr də qeyd etdi, – yaxın zamanlarda Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat diqqətinizə təqdim ediləcəkdir və ötən il hökumət tərəfindən görülən işləri və qarşıda duran vəzifələri müzakirə edəcəyik.

Hörmətli xanım sədr, hörmətli deputatlar, bu gün bu yüksək kürsüdən bir daha bəyan edirəm ki, Azərbaycan hökuməti ölkəmizin davamlı inkişafı və xalqımızın firavan

həyatının təmin edilməsi ilə bağlı dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşımıza qoyulan vəzifələrin və verilən tapşırıqların vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün bütün səylərini səfərbər edəcəkdir. Diqqətinizə görə təşəkkür edirəm.

Deputat Həsənquliyevin suallarının, – hörmətli xanım sədr dedi, – ikisinə qısa da olsa cavab verim. Texniki məsələ olmasa da, repetitorluq ilə əlaqədar hesabatda daha konkret cavab verərəm.

Möhtərəm cənab Prezident bu kürsüdən, dediyim kimi, proqramlı çıxış etdi və gələcək illərdə cəmiyyətimiz üçün, o cümlədən yuxarı icra orqanı olan hökumət qarşısında vəzifələr qoydu. Bu tapşırıqlar bizim hər gün məşğul olduğumuz işlər olacaqdır.

Təbii olaraq, iki mövzu gündəlikdə daha da qabardılmışdı. Cənab Prezidentin dediyi kimi: "Bizə ayrı ailə lazım deyil". Türk Dövlətləri Təşkilatı çərçivəsində möhtərəm cənab Prezidentin fəaliyyəti yüksək qiymətləndirilir, onun müəyyən etdiyi xətt bizim üçün əsas xətdir və onun icrası ilə biz mütləq şəkildə məşğul olacağıq.

İkinci sual, biz Azərbaycanın gələcək dinamik inkişafı üçün nələr edəcəyik? Ümumiyyətlə, Prezidentimizin hər gün, hər saat məşğul olduğu problemlərin bir mövzusu var: Azərbaycan xalqı, Azərbaycan cəmiyyəti və onun hərtərəfli inkişafı. Hökumət olaraq bunların icrası bir nömrəli məsələdir.

Mənə etimad göstərən möhtərəm cənab Prezidentə, Milli Məclisə minnətdaram və sizin qarşınızda çıxış edərək bir daha bəyan edirəm, hökumətin bütün üzvləri ilə bərabər verilən tapşırıqları gündəlik fəaliyyətimizdə təmin edəcəyəm. Çıxış edən və namizədliyim ilə əlaqədar yaxşı sözlər deyən hörmətli deputatlara təşəkkür edirəm, yazılan

və yazılmayan deputatlara öz minnətdarlığımı bildirirəm. Çox sağ olun. *(Alqışlar.)*

Sədrlik edən. Əli müəllim, çox sağ olun. Biz Sizi təbrik edirik və çətin, məsuliyyətli işinizdə Sizə uğurlar arzulayırıq.

İndi biz hörmətlə Sizi yola salaq. Çox sağ olun.

Adil müəllim, xahiş edirəm, davam edin.

*Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini **Adil Əliyev** sədrlik edir*

Sədrlik edən. Hörmətli həmkarlar, biz işimizə davam edirik. Qeyd edim ki, gündəliyin növbəti 3 məsələsi birinci oxunuşda olan qanun layihələridir. Odur ki, xahiş edirəm, çıxışlarınızda birinci oxunuşun tələblərini nəzərə alasınız. İndi biz gündəliyin 2-ci məsələsinə keçirik. Bu məsələ "Su təchizatı və tullantı suları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Buyurun, Sadiq müəllim.

S.Qurbanov, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun. "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi bizim komitəmizdə geniş müzakirə olundu. Bu sahədə çalışan dövlət qurumları dəvət olundu, geniş müzakirədən sonra bu qanun layihəsinin əsaslandırılması ilə Məclisimizi tanış etmək istəyirəm. Layihə Dünya Bankı Qrupunun "Əlverişli biznes mühiti" layihəsinin "Kommunal

xidmətlərə (su təchizatı şəbəkəsinə) qoşulma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşdirmələrin həyata keçirilməsinə dair 2022–2023-cü illər üzrə Yol Xəritəsinin 2.3.2-ci altkomponentinin 1-ci yarımbəndi və 3.1.1-ci altkomponentinin 2-ci yarımbəndinin icrası, tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması qaydasının, eyni zamanda, qoşulma xəttinə görə ödəniş məbləğinin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin “İstehlakçıların su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması üçün texniki şərtlərinin verilməsi və qoşulması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2014-cü il 13 avqust tarixli 275 nömrəli Qərarının ləğv edilməsi barədə qərar layihəsinin qəbul edilməsi məqsədi ilə hazırlanmışdır. Layihədə tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulması qaydalarında müvafiq anlayışlardan istifadə edilməsi zərurəti ilə əlaqədar “Su təchizatı və tullantı suları haqqında” Qanunun 1-ci maddəsinin on üçüncü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilərək, on dördüncü–iyirminci abzasında “qoşulma nöqtəsi”, “fiziki qoşulma”, “qoşulma müqaviləsi”, “qoşulma xidmətinə görə ödəniş”, “tikinti obyektlərinin su təchizatı və tullantı sularının axıdılması sistemlərinə texnoloji qoşulması”, “texniki şərtlər”, “məişət abonenti” anlayışlarının əlavə edilməsi təklif olunur.

Həmçinin 23-cü maddənin 2.1.1-ci, 2.2.4-cü hissəsində və 2.3.5-ci hissədə dəyişiklik edilmiş, 24-cü maddənin ikinci hissəsində dəyişiklik edilərək yeni redaksiyada verilməsi, “Tikinti obyektlərinin su təchizatı sisteminə qoşulması” adı altında 24.1-ci maddənin əlavə edilməsi, 25-ci maddənin birinci və ikinci hissələrində dəyişiklik edilərək

yeni redaksiyada verilməsi, həmçinin üçüncü və dördüncü hissələrin əlavə edilməsi və 60-cı maddənin birinci və beşinci hissələrinə dəyişiklik edilməsi təklif olunur.

Layihənin qəbul edilməsi, yəni bu obyektlərin su təchizatı və kanalizasiya sisteminə qoşulması mexanizmlərinin təkmilləşdirilməsini nəzərdə tutur. Bu Qanuna görə, eyni zamanda, tikinti obyektlərinin su təchizatı sisteminə qoşulmasının hüquqi əsaslarının, bu sahədə qabaqcıl təcrübəyə uyğun olaraq təkmilləşdirilməsi nəzərdə tutulur. Təklif olunan qoşulma qaydaları mövcud istehlakçıların hüquqlarının qorunmasını, keyfiyyətli su təchizatı xidmətinin göstərilməsi üçün sistemin fəaliyyətinin dayanıqlığının artırılmasını və keyfiyyətinin yüksəldilməsini özündə ehtiva edir. Həmçinin sahibkarlıq subyektlərinin su təchizatı və kanalizasiya sisteminə qoşulmasının daha da optimallaşdırılmasını nəzərdə tutur. Eyni zamanda, vətəndaşlara və digər istehlakçılara, xidmət qurumlarına münasibətdə şəffaflığın artırılması və tariflərin, qoşulmanın tələblərinin şəffaflaşdırılması nəzərdə tutulmuşdur.

Təklif olunan qoşulma qaydaları və qoşulma ilə bağlı münasibətlərin tikintiyə icazə və eləcə də tikintinin istismarına icazə verilməsinin tənzimlənməsi prosesində nəzərdə tutulması da yüksək qiymətləndirilməlidir. Qanun qəbul edildikdən sonra su təchizatı, kanalizasiya sisteminə qoşulma şərtlərini müəyyən edən müvafiq qaydalar da yeniləşəcək. Qısası, yəni bu qanunun qəbul edilməsi, – mən sizdən xahiş edirəm ki, dəstəkləyəsiniz, – bu sahədə aparılan islahatlara bir dəstəkdir. Eyni zamanda, bu günə qədər su xətlərinə qoşulma ilə bağlı böyük problemlər var. 13-15 sənəd tələb olunur. Bu sənədlərin sayı artıq 3 sənədə enəcək. Necə ki, biz elektrik enerjisinə qoşulmada “ASAN xidmət”dən, “ASAN Kommunal”dan elektron

istifadə edirik. Biz su təchizatında da bu sistemi təkmilləşdirəcəyik. Xahiş edirəm, dəstək olun və sizin dəstəyiniz həm vətəndaşlarımıza, həm də sahibkarlığın inkişafına xüsusi töhfə olacaq. Xahiş edirəm, dəstəyinizi əsirgəməyin. Diqqətinizə görə çox sağ olun.

Azərbaycan Respublikası Milli Məclisinin sədri
***Sahibə Qafarova** sədrlik edir*

Sədrlik edən. Sadiq müəllim, ətraflı məlumata görə çox sağ olun. Təklif var, 5 dəqiqə. Hamınız razısınız?

Yerdən. *(Eşidilmir.)*

Sədrlik edən. Hörmətli həmkarlar, biz müzakirəyə keçirik. Adil müəllim dedi, sizə xatırlatdı, birinci oxunuşdur. Xahiş edirəm, çıxışlarınızı birinci oxunuşun tələblərinə uyğun olaraq qurun. Vüqar Bayramov. Buyurun.

V.Bayramov. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mən də birinci oxunuşun tələblərinə uyğun olaraq, 3 konseptual məsələni qeyd etmək istərdim. Əvvəla, qeyd olunduğu kimi, bu gün kommunal xidmətlərdən istifadə etməkdə ən ciddi məsələlərdən biri məhz texniki şərtlərin verilməsidir. Bu qanun layihəsi texniki şərtlərin verilməsi ilə bağlı prosedurları asanlaşdıracaq, tələb olunan sənədlərin sayında azalmalar olacaq. Təbii ki, bu, kifayət qədər pozitiv və müsbət addımdır. Amma bununla belə, təbii ki, texniki şərtlərin verilməsi prosedurunun da asanlaşdırılması olduqca vacibdir. Burada elektron xidmətlərdən istifadə olunsa da belə, xüsusən həm vətəndaşlar, həm də bir sıra hallarda biznes subyektləri tərəfindən texniki şərtlərin alınmasında çətinliklər var. Bu çətinliklərin aradan qaldırılması, təbii ki, həm qanunvericilik baxımından, həm də praktik baxımdan olduqca vacibdir.

İkinci konseptual məsələ qoşulma xərcləri ilə bağlıdır. Qoşulma xərcləri, təəssüf, hələ də yüksək olaraq qalmaqdadır və nəzərə alsaq ki, qoşulma xərcləri xüsusən də biznes üçün əlavə xərclər yaradır. Çünki nəzərə alsaq ki, biznes kommunal xidmətlərdən istifadə edən zaman praktik olaraq həmin xidmətlərə görə ödəniş edir. Amma bir tərəfdən, təbii ki, kommunal xidmətləri təklif edən, təqdim edən dövlət qurumu daha aşağı xərclərlə biznesi kommunal xidmətlərdən istifadəyə cəlb etməlidir. Çünki bu, praktik olaraq öz məhsulunu və xidmətini satır və biznes tərəfindən ödənişlər olur.

Üçüncü konseptual məsələ müddətlə bağlıdır və qanun layihəsində hətta sutkalıq ötürmə qabiliyyəti 100 kubmetrdən az olan su təchizatına qoşulmaq üçün tələb olunan müddət 30 gündür. Əslində, bu, kifayət qədər uzun bir müddətdir. Nəzərə alsaq ki, xüsusən də ötürmə qabiliyyəti yüksək olmayan xətlərə qoşulmaq üçün müddətə baxılıb və müddətin azaldılması, daha qısa müddətdə həm vətəndaşlarımıza, istehlakçılara, həm də, təbii ki, biznesə kommunal xidmətlərdən istifadə imkanlarının yaradılması məqsədəuyğun olardı. Bütövlükdə, qanun layihəsini dəstəkləyirəm və hörmətli həmkarlarımızı da qanun layihəsini dəstəkləməyə çağırıram. Çox sağ olun.

Sədrlik edən. Çox sağ olun. Elşad Mirbəşir oğlu. Buyurun.

E.Mirbəşir oğlu. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Təqdim edilən qanun layihəsi, həqiqətən də, çox vacibdir. Nəzərə almaq lazımdır ki, gələcəkdə tikinti obyektlərinin su təchizatı sistemlərinə qoşulması prosesinin səmərəliliyinin artırılması həm də beynəlxalq indeks cədvəllərində müvafiq sahələr üzrə Azərbaycanın mövqelərini daha da yaxşılaşdıracaqdır. Amma nəzərə almaq lazımdır ki, su resurslarının idarə olunması məsələsi hər zaman dövlət

başçısının xüsusi diqqət mərkəzində olub. Dövlət Su Ehtiyatları Agentliyinin yaradılması da məhz su resurslarının daha səmərəli idarə olunması məqsədlərinə xidmət edir. Hesab edirəm ki, bu gün Azərbaycanda su resurslarının daha da səmərəli idarə olunması məsələsini çox yaxından diqqətdə saxlamaq lazımdır.

Beynəlxalq Təbii Resurslar İnstitutunun hesabatına görə, Azərbaycanda tələb olunan su resurslarının miqdarı təxminən 7-8 dəfə çox olmasına baxmayaraq, su qıtlığı ilə üzləşmə riski olan ölkələr sırasında Azərbaycan 18-ci yerdədir. Yəni belə ölkələrin sayı 33-dür, amma Azərbaycan bu 33 ölkə sırasında 18-ci yerdədir. Bu isə onun göstəricisidir ki, tikinti obyektlərinin su təchizatı sistemlərinə qoşulması zamanı su itkisinin qarşısının alınması haqqında xüsusi düşünmək lazımdır.

Məsələnin digər tərəfi ondan ibarətdir ki, bu gün, obrazlı desək, su müharibələrinin başlanması ehtimalları da çox böyükdür. Bəlkə də belə müharibələr, belə münaqişələr baş verir. Həqiqətən də, bu gün qlobal müstəvidə su resursları uğrunda çox ciddi mübarizə getməkdədir. Amma Azərbaycan xoşbəxt dövlətdir ki, bir daha qeyd edim, ehtiyaclarımızı ödəyəcəyimiz üçün lazım olandan 7-8 dəfə artıq su resurslarımız mövcuddur. Cənab Prezident bizim təkcə torpaqlarımızı deyil, həm də su ehtiyatlarımızın 41 faizini işğal altından qurtardı. Hesab edirəm ki, bu, gələcəkdə Azərbaycanda su təchizatının yaxşılaşdırılması istiqamətində əlavə nadir imkanlar yaradacaq. Amma bu məsələyə konseptual yanaşmaq lazımdır. Hesab edirəm ki, su resurslarının idarə olunması istiqamətində strukturun yaradılması ilə yanaşı, ayrıca dövlət proqramının işlənib hazırlanması da çox vacibdir.

Bizim ölkəmizin su resursları təxminən 32 milyard kubmetr təşkil etməkdədir. Bunun 70 faizi kənarda, 30

faizi isə Azərbaycanın sərhədləri daxilində formalaşır. Azərbaycan, ümumiyyətlə, postsovet ölkələri içərisində su ehtiyatlarına görə ən üstün mövqelərə sahibdır. Amma əhalinin, eyni zamanda, təsərrüfatların su təchizatının yaxşılaşdırılması istiqamətində daha sistemli yanaşma tətbiq olunarsa, hesab edirəm ki, bu, ölkəmizin mövqelərini daha da möhkəmləndirmiş olar.

Bir rəqəmi də səsləndirmək istəyirəm. Yenə də dünya səviyyəsində olan ayrı-ayrı reytinq cədvəllərinə görə Azərbaycanda illik su tələbatı 1,6 milyard kubmetrdir. Amma təxminən 5,3 dəfə bundan az su təchizatı həyata keçirilir. Bu o deməkdir ki, çox ciddi su itkisinə yol verilir. Bu baxımdan su itkilərinin qarşısının alınması haqqında düşünmək lazımdır və yenə də hesabatlara əsasən, tikinti obyektlərinin su təchizatı sistemlərinə qoşulması zamanı bu məsələnin diqqətdə saxlanılması çox vacibdir. Ümumiyyətlə, qanun layihəsini dəstəkləyirəm. Sağ olun.

Sədrlik edən. Sağ olun. Hikmət Məmmədov. Buyurun.

H.Məmmədov. Hörmətli xanım sədr, hörmətli millət vəkili həmkarlarım. Fevral ayının 14-də bu tarixi salonda baş tutan mühüm tarixi hadisə münasibəti ilə hamınızı bir daha təbrik edirəm. Azərbaycan Prezidenti özünün andiçmə mərasimində bir sıra mühüm məsələlərə toxundu. Mən düşünürəm ki, gələcək inkişafımız ilə bağlı strateji fikirlər səsləndirdi. Onların içərisində ən əsaslarından biri də güclü ordu, güclü iqtisadiyyat və güclü xarici siyasət müəyyənləşdirmək məsələsi oldu.

Bu gün biz hörmətli cənab Baş nazirin təqdimatını təsdiq etdik. Əlbəttə, bu da mühüm hadisədir. Əlbəttə, Baş nazirlik institutu bu gün Azərbaycanda mühüm icraedici, qərar qəbuledici üst qurumlardan biridir. Belə olan halda, əgər bir ölkənin Baş naziri təyin olunursa, nəzərə almaq

lazımdır ki, müxtəlif fikirlər ola bilər. Bu fikirlərin səslən-dirilməsinə ehtiyac ola bilər. Yerdən bəzi həmkarlarımız "səsə qoyaq", "səsə qoyaq" deyə çağırış edirlər və nəticə də belə olur.

Bu gün təqdim olunan...

Sədrlik edən. Hikmət müəllim, başa düşmədim. Necə olur nəticə? Başa düşmədim, üzr istəyirəm.

H.Məmmədov. Sahibə xanım, nəticə də o olur ki, deputatlar öz sözlərini deyə bilmirlər.

Sədrlik edən. Düşünürəm ki, Hikmət müəllim, üç dəfə "səsə qoyaq" deyən elə deputatlar idi. Hər biriniz, hər bir deputat, həmişə olduğu kimi, istədiyi fikirləri, öz çıxış-larını yazılı surətdə həmişə verə də bilər. Bunların hamısı da lazım olan tərzdə, istəyiniz də olsa, Baş nazirə çat-dırılacaq.

H.Məmmədov. Təşəkkür edirəm, hörmətli xanım sədr. İndi isə biz su təchizatı haqqında qanun layihəsinə də-yişiklikləri müzakirə edirik. Mən də birinci oxunuşa uyğun olaraq, konseptual şəkildə çıxış etmək istəyirəm. Söhbət nədən gedir? Söhbət ondan gedir, ilk növbədə su olmalıdır ki, onun təchizatı olsun. Ona görə də Azərbay-can Prezidenti öz çıxışında dedi ki, "biz heç vaxt situativ qərarlar qəbul etməmişik, bir qərarımız digərini tamam-lamaq üçün, ona zəmin yaratmaq üçün qəbul edilən qərar olub". Doğrudan da, vaxtı ilə Oğuz–Qəbələ–Bakı su kə-məri inşa olunanda, Taxta Körpü su anbarı inşa olunanda, torpaqlarımız işğaldan azad olunduqdan, Sərsəng su anbarının Azərbaycanın nəzarətinə keçməsindən sonra su ehtiyatlarımızda bir tamlıq əmələ gəlib və su ehtiyatları-mızdan səmərəli istifadə üçün şərtlər formalaşıb. Ona görə, mən düşünürəm ki, biz bu qanun layihəsini qəbul edək, bu, çox vacib qanun layihəsidir. Çünki nəticə etibarı

ilə bu da iqtisadiyyatımızın, sənayemizin inkişafına gətirib çıxaran bir haldır.

Amma məsələ ondan ibarətdir ki, biz suyu həddindən artıq çox israf edirik. Hörmətli həmkarım səsləndirdi ki, XXI əsr su müharibələri əsridir. Doğrudan da, elə artıq bu su müharibələri başlayıbdır, biz uzun müddətdir görürük ki, Dəclə–Fərat hövzəsinin su ehtiyatları üçün müharibələr gedir. Yaxın Şərqdə baş verən müharibələrin biri də bundan ibarətdir. Kür–Araz ovalığında su qıtlığı yaranır, biz görürük, müşahidə edirik və bu gün Kürün suyunun azalması da o səssiz müharibənin bir nəticəsidir. Ona görə də mənə elə gəlir ki, bu qanunu qəbul etməklə bərabər, biz həm də tullantı suların yenidən istismarı və yaxud yenidən emalı və texniki su haqqında ayrıca bir qanun qəbul etməliyik. Düşünürəm ki, elə bu qanunvericilik təşəbbüsü ilə Milli Məclisin müvafiq komitəsi də çıxış edə bilər. Biz də hər birimiz ona dəstək verə bilərik. Su ehtiyatlarını idarə edən müvafiq icra hakimiyyəti orqanı da bu prosesə qoşula bilər. Nəticə etibarı ilə bizə etibarlı su təminatı üçün su ehtiyatlarımızın etibarlı, ağıllı şəkildə istismar olunmasını təmin edəcək bir qanun layihəsi lazımdır. Düşünürəm ki, texniki suların yenidən istifadəsi və su tullantılarının yenidən emalı və yenidən istismarı ilə, daha doğrusu, yenidən istifadəsi ilə bağlı yeni bir qanun layihəsinə ehtiyac var. İndiki halda bu qanun layihəsinə edilən dəyişikliklərə səs verəcəyəm. Diqqətinizə görə təşəkkür edirəm.

Sədrlik edən. Sağ olun. Azay Quliyev, buyurun.

A.Quliyev. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu gün müzakirəmizə təqdim olunan qanun layihəsində ölkədə su təchizatı sisteminin daha da yaxşılaşdırılması, eyni zamanda, su təchizatı və tullantı

sularının axıdılması sisteminə qoşulma prosedurunun sadələşdirilməsi, başqa sözlə, əhaliyə xidmətin yaxşılaşdırılması nəzərdə tutulur. Əlbəttə, bu, yeni dəyişikliklərdir və biz bunu dəstəkləməliyik.

Eyni zamanda, nəzərə almalıyıq ki, bütün qanunların qəbulunda əsas məqsəd, son hədəf vətəndaş və insandır, vətəndaşların və insanların maraqlarının qorunmasıdır. Bu qanun layihəsində də, hesab edirəm ki, bu məqsəd əsas götürülüb. Dolayısı ilə, hesab edirəm, bu cür qanunlar qəbul edilən zaman həm də həmin sahənin, ümumiyyətlə, vəziyyətinə də diqqət ayırmaq lazımdır və əlbəttə ki, bu istiqamətdə göstərilən xidmətin keyfiyyəti diqqət mərkəzində olmalıdır.

Əlbəttə, ədalət naminə demək lazımdır ki, son illər su təchizatı sistemində çox böyük işlər görülübdür. Bakının, ətraf rayonların su ilə təmin olunması istiqamətində daim layihələr həyata keçirilir. Amma eyni zamanda, bu gün hələ də qarşıda duran vəzifələr, görüləcək işlər var. Bu nöqteyi-nəzərdən, hesab edirəm, elə bu qanun layihəsinin birbaşa predmetinə aid olduğuna görə, məhz həm bu istiqamətdə vətəndaşların ödəyəcəyi xidmət haqlarının qarşılığının adekvat olması, ödənilən xidmət haqlarına uyğun olaraq xidmətin göstərilməsi, eyni zamanda, əlbəttə ki, su ehtiyatlarına çıxışın təmin olunması baxımından bir sıra məsələlərə diqqət yetirmək lazımdır.

Bunlardan birincisi odur ki, bu gün tullantı sularının axıdılması sistemində bir sıra problemlər var. Mən elə özüm təmsil olunduğum Binəqədi rayonunu misal göstərə bilərəm ki, hələ də 7-ci mikrorayonda 10-dan çox binanın məhz kanalizasiya-su sisteminin, bütövlükdə yaxşılaşdırılması ilə bağlı ciddi işlərə ehtiyac var. Bununla bağlı bildiyim qədər müvafiq dövlət qurumu, yəni “Azərsu”, indiki

Dövlət Su Ehtiyatları Agentliyi Nazirlər Kabinetinə müvafiq təkliflər verib. Ancaq bu istiqamətdə müəyyən maliyyə ayrılmayıb. Mən düşünürəm ki, bu, çox vacib bir məsələdir. Təsəvvür edin ki, bütövlükdə, böyük bir mikrorayonun bu gün su təchizatı sistemində problemlər hələ də qalmaqdadır.

Maraqlı və vacib olan məsələlərdən biri odur ki, hələ də, təəssüflər olsun, Bakının bəzi rayonlarında, – məsələn, mən elə 2 gün öncə 9-cu mikrorayonda seçicilərlə görüşəndə bu məsələni qaldırdılar, – suyun keyfiyyəti çox aşağıdır. Bəzən su tam təmizlənmir, filtrdən keçmir, hətta fiziki olaraq görürsən ki, suyun keyfiyyəti nə qədər aşağıdır. Mənə elə gəlir ki, müvafiq qurum bu məsələyə də diqqət ayırmalıdır.

Eyni zamanda, təəssüflər olsun ki, yenə də 9-cu mikrorayonda hələ də suyu qrafiklə verilən məhəllələr, evlər, binalar var. Bu istiqamətdə, mənə belə gəlir ki, aidiyyəti qurumlar müəyyən məsələləri aydınlaşdırmalıdır, bu məsələlərə ciddi yanaşılmalıdır və problemlər öz həllini tapmalıdır.

Bir də, hörmətli xanım sədr, burada digər narahatedici məqam ondan ibarətdir ki, bu gün Bakıda bir çox yerlərdə istismara alınmayan binalar var. Bu binaların bəziləri 15 il, 20 il bundan öncə tikilib. Həmin istismara alınmayan binaların həm kommunal xidmətlərlə təchizatı, həm də, bütövlükdə, vətəndaşların müvafiq qaydada hüquqlarının qorunması məsələsi, demək olar, sual altındadır və bu, insanları narahat edir. Əlbəttə ki, indi Mənzil Məcəlləsi haqqında da, gündəlikdə olan növbəti məsələlərdə o da var, amma bütövlükdə, mənə belə gəlir ki, bu məsələyə yanaşan zaman əgər bu binanın tikintisinə icazə verilibsə, hansı qaydada icazə verilib, biz bunu nəzərə almalıyıq,

aydınlaşdırılmalıdır. Yox, bunun artıq tikintisi başa çatıbsa, istismara alınmalıdır. Bir binada təsəvvür edin ki, bəzən 360, 380 ailə yaşayır. Onların heç bir yerdə qeydiyyatı yoxdur, hər hansı məsələlərdə iştirak edə bilmirlər, hətta səsvermədə belə onlar öz hüquqlarından, səsvermə hüquqlarından lazımi səviyyədə istifadə edə bilmirlər. Ona görə mən düşünürəm ki, bu məsələlər də bizim müvafiq qurumların diqqətində olmalıdır.

Amma bütövlükdə, əlbəttə, qanun layihəsinin fəlsəfəsi, konsepsiyası bizə aydındır. Mən qanun layihəsinə səs verəcəyəm. Təşəkkür edirəm.

Sədrlik edən. Sağ olun. Aydın Hüseynov. Buyurun.

A.Hüseynov. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Müzakirə etdiyimiz qanun layihəsinin vacibliyi və qanunda dəyişikliklərin mahiyyəti barədə çox hörmətli komitə sədri Sadiq müəllim ətraflı məlumat verdi. Mən də çalışacağam ki, birinci oxunuşun tələblərinə uyğun olaraq, bəzi fikirlərimi sizinlə bölüşüm.

Birinci, məlumdur ki, müzakirə etdiyimiz qanun layihəsi tikinti obyektinin su təchizatı sisteminə qoşulmasının hüquqi bazasını yaradır. Çünki əvvəllər bu hüquqi baza Nazirlər Kabinetinin, yəni hökumətin qərarı ilə tənzimlənirdi. İndi isə bu qanun çərçivəsində tənzimlənməsi, hesab edirəm ki, məhz beynəlxalq təcrübəyə söykənərək bu tərzdə qəbul olunması daha əlverişlidir və daha vacibdir.

Digər tərəfdən, istehlakçıların hüquqları qanuni şəkildə qorunur. Üçüncü bir yanaşma isə sahibkarlıq subyektlərinin su təchizatı və kanalizasiya sisteminə qoşulmasının optimallaşdırmasını təmin etmiş olur. Digər tərəfdən isə, keyfiyyətli su təchizatının yaradılmasını əsaslandırır. Bu baxımdan, doğrudan da, bu sahədə, yəni suyun həyati vacib olması ilə bağlı hər hansı yeni fikir söyləmək də

gərək deyil. Bu məlumdur. Digər tərəfdən, su strateji məhsuldur. Buna görə də su təchizatının qanunvericiliklə bu tərzdə tənzimlənməsi, hesab edirəm ki, mühümdür. Ona görə də qanun layihəsinə səs verəcəyəm.

Sadəcə olaraq, qanun layihəsinin müzakirəsi fürsətindən istifadə edərək, qeyd etmək istərdim ki, – qanunda da var, – keyfiyyətli su təchizatının təmin olunması. Həmkarlarım da bayaq səsləndirdilər. Birinci növbədə, su təchizatının təmin edilməsi ən vacib məsələdir. Bu baxımdan təmsil etdiyim Qaradağ rayonu, məlumdur ki, ərazi baxımdan böyük bir rayondur. Digər tərəfdən, strateji bir rayondur, orada yeni sənaye sahələri yaradılır. Ən başlıcası isə ölkənin ən böyük sənaye strukturları məhz o istiqamətdə təşəkkül tapmaqdadır. Digər tərəfdən isə, əvvəlki illərə nisbətən müqayisə etsək, əhalinin sayı dəfələrcə artıb. Kanalizasiya və su təchizatı sistemi isə bu artım tempinə uyğun yenilənməyib. Çünki əksər qəsəbələrdə – Sahil, Qobustan, Ələt və sair qəsəbələrdə su-kanalizasiya sistemi 1960-cı illərdə çəkilən sistemdir. Yəni bugünkü tələbatı ödəyə bilmir. Digər tərəfdən, ən başlıcası kanalizasiya sistemlərinin, belə deyək, köhnə vasitələrlə təchiz edilməsidir. Həm torpaqdakı aşınma, – orada duzluluq çoxdur, – həm də qeyd etdiyim kimi, 50 ildən çoxdur o sistemlər artıq yenilənmir, bərpa olunmur. Mən hesab edirəm ki, bu sahəyə xüsusi diqqət yetirilməlidir. Çünki həm rayonda investorların diqqətini cəlb edəcək, həm də sənaye baxımdan yanaşsaq, strateji bir məkandır. Ona görə də hökumətdən xahiş edirəm, bu sahəyə investisiyanın yönəldilməsi və yaxud əlavə vəsaitin verilməsi, hesab edirəm ki, həm sakinlərin, həm də sahibkarların istəyincə olar. Təşəkkür edirəm. Qanun layihəsinə səs verəcəyəm.

Sədrlik edən. Sağ olun. Fəzail Ağamalı.

F.Ağamalı. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Su təchizatında texnoloji üstünlüklərdən istifadə, onun tikintidə qoşulma qaydaları və qoşulmaya görə ödənişin təmin edilməsi qanun layihəsinin başlıca predmetidir. Layihə bu baxımdan mütərəqqidir, müasir şəhərsalma qaydalarına tamamilə uyğundur. Düşünürəm ki, bunun özü Bakı şəhərində özünü göstərən çatışmazlığın aradan qaldırılmasına öz töhfəsini verəcəkdir. Mən qanun layihəsinə səs verəcəyəm. Yeri gəlmişkən, bu məsələnin mahiyyətinə uyğun olaraq, bəzi məqamlara da toxunmaq istərdim.

Ölkəmizdə su təsərrüfatının inkişafına, təkmilləşdirilməsinə, ondan istifadədə yol verilmiş olan israfın aradan qaldırılmasına ölkə Prezidenti səviyyəsində xüsusi diqqətlə əhəmiyyət verilir və verilməkdədir. Təsadüfi deyil ki, cənab Prezidentin xüsusi sərəncamı ilə Dövlət Su Ehtiyatları Agentliyi yaradıldı və onun fəaliyyəti üçün əsas götürülərək ölkənin bütün su təsərrüfatı ona tapşırıldı. Aparılan müşahidələr də göstərir ki, yeni yaranmış olan agentlik dövlət başçımızın bu baxımdan qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə peşəkarlıqla və məsuliyyətlə yanaşır və onun fəaliyyəti də göz önündədir. Ümidvaram ki, ölkəmizdə su təsərrüfatının yüksək səviyyədə qurulması, ondan istifadədə yol verilmiş olan israfçılığın aradan qaldırılması üçün təkcə dövlət agentliyi deyil, hər bir Azərbaycan vətəndaşının məsuliyyət hissi də yüksək olacaqdır. Çünki vətəndaşların sudan istifadəyə münasibətində bir yeniliyə ciddi ehtiyac var. Bunun da, düşünürəm, hansısa bir qaydada biz üzərinə düşməliyik və çalışmalıyıq ki, vətəndaş və müvafiq qurumlar arasında qarşılıqlı şəkildə əməkdaşlıq elə yüksək səviyyədə qurulsun ki,

sudan istifadədə israfçılığa yol verilməsin.

Hörmətli xanım sədr, mən bununla bağlı həm də millət vəkillərinin diqqətinə çatdırmaq istərdim ki, su təsərrüfatından istifadə üçün Azərbaycanın imkanları kifayət qədər məhduddur. Bunu aradan qaldırmaq üçün su anbarları yaradılmalıdır. Bütün payızda və qışda çaylar axıb gedir, Xəzərə tökülür, yağış suları da eyni şəkildə. Onların hamısını bir yerə yığaraq ayrı-ayrı yerlərdə su anbarları yaradıb və sonradan onların su təsərrüfatı kimi istifadə edilməsi, düşünürəm ki, çox faydalı olardı.

İkinci, Bakı kəndlərinin ətrafında yeni yaşayış massivlərinin salınması ilə bağlı kanalizasiya sistemində ciddi problemlər var. Yaxşı olardı ki, bununla bağlı xüsusi dövlət proqramı hazırlansın və Bakı ətrafındakı müvafiq kanalizasiya sistemi qurulsun. Çünki bu, son dərəcə vacib məsələdir. Əgər bununla bağlı, bu və ya digər problemlərin aradan qaldırılması üçün su təsərrüfatı ilə bağlı qanunvericiliyin təkmilləşməsinə ehtiyac olarsa, ümidvaram ki, hörmətli xanım sədr, Siz, həm də millət vəkilləri bu məsələyə diqqətlə və müsbət yanaşa biləcəksiniz. Çox sağ olun.

Sədrlik edən. Çox sağ olun. Elnur Allahverdiyev. Buyurun.

E.Allahverdiyev. Təşəkkür edirəm. Hörmətli xanım sədr, dəyərli həmkarlar. Mən həm təklif vermək, həm də icazənizlə, müzakirə etdiyimiz qanun layihəsi çərçivəsində bir-iki qeydimi sizinlə bölüşmək istəyirəm.

Ölkəmizdə su təchizatı və suya olan tələbat, yaxud ehtiyaca dair proqnozlar, təəssüf ki, o qədər də pozitiv deyil. Çünki qarşıdakı illərdə su qıtlığı ilə üzləşə bilərik. Bu, təbii ki, obyektiv bir prosesdir, bütün dünyada izlənilən tendensiyadır. Azərbaycanın da inkişafda olan ölkə və bu dünyanın bir parçası olaraq suya tələbatı getdikcə artmaqdadır.

Birincisi, əhalimizin sayı sürətlə çoxalır. İkincisi, iqtisadiyyat böyüyür, istehsal sahələri genişlənir və bu, həm içməli, həm də texniki suya olan ehtiyacı dəfələrcə artırır. Hökumətin bu problemin çözülməsi ilə bağlı həyata keçirəcəyi və keçirilən tədbirlər, təbii ki, mövcuddur. Mən bu kontekstdə təklif edərdim ki, misal üçün, dəniz suyunun təmizlənməsi, yaxud Kür çayı sularının filtrasiyası prosesində, – bu gün dünyada uğurla sınaqdan çıxarılır, – özəl sektorun iştirakına şərait yaradılsın.

Misal üçün, su təmizləyən, daha doğrusu, texniki qurğulardan söhbət gedir, xüsusi ilə bu, özəl şirkətlərin investisiya layihəsinə çevrilə bilər. Onlar, deyək, eyni qaydada, ya dəniz suyunu, ya da hazırda mütəmadi olaraq Kürdən və digər çaylardan Xəzərə axan suları filtrasiya etməklə texniki su kimi istifadə üçün yararlı edə bilərlər. Dünya praktikasında bu cür təqdimatlar və bu cür layihələr çoxdur. Bu texniki su həm də dövlətin mövcud infrastrukturu üzərindən istehsalla məşğul olan müəssisələrə də satıla bilər. Yenə deyirəm, Birləşmiş Ərəb Əmirliklərində bu proses var və çox uğurla başa çatıb, daha doğrusu, davam olunur. Özəl şirkətlər də investor kimi cəlb edilərək, yəni orada tək filtrləri quraşdırmaq, texniki işi görmək deyil, əvvəldən axıra kimi, texniki suların istehsal müəssisələrinə çatdırılması və texniki suya ehtiyac olan digər sahələrdə onun səmərəli istifadəsində bu işin birbaşa yaradıcısı kimi fəaliyyət göstərsin.

Bildiyiniz kimi, ekologiya baxımdan bu, çox vacib bir məqamdır, ağac suvarılması və sair məsələlər. Amma fakt ondan ibarətdir ki, COP29 ili çərçivəsində bu cür mövzuları aktiv şəkildə müzakirə etməyə dəyər. Mən təklif edərdim ki, bu cür dinləmələr də aparılsın. Biz komitədən də icazə, daha doğrusu, xahiş edərdik ki, sırf su ilə bağlı

olan belə ictimai dinləmələr keçirilsin. Təşəkkür edirəm.

Sədrlik edən. Sağ olun. Rəşad Mahmudov. Buyurun.

R.Mahmudov. Çox hörmətli xanım sədr, çox dəyərli millət vəkilləri. Düşünürəm ki, mövcud qanun layihəsi, ümumiyyətlə, ölkəmizdə aparılan islahatların tərkib hissəsidir. Bir məsələni də diqqətinizə çatdırmaq istəyirəm ki, su və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi həm də milli sağlamlıq məsələsidir, gələcək nəsillərimizin genefondunun sağlam olması deməkdir. Dünya Səhiyyə Təşkilatı tərəfindən də birmənalı olaraq hər bir ölkəyə tövsiyə olunan standartların təmin olunması həm də əhalinin sağlamlığının qorunmasında önəmli məsələlərdən biridir.

Bu gün ölkəmizdə baş verən bütün dəyişikliklər, eləcə də cənab Prezident tərəfindən qısa müddət əvvəl hamımızın iştirakı ilə verilən mesajlarda daha da qüdrətli Azərbaycan naminə şərəfli, məsuliyyətli bir yola girdiyimizin fərqindəyik. Düşünürəm ki, bu qanun layihəsi də bu işin önəmli tərkib parçalarından biri olaraq öz işini görəcəkdir.

Mən birinci oxunuşun tələblərinə uyğun bir şəkildə bəzi düşüncələrimi də paylaşmaq istəyirəm. Qanun layihəsində təklif olunan müddəalar ümumi olaraq ölkəmizdə bu sahənin inkişafına böyük töhfə verəcək, ən əsası da bu günə qədər, son 20 il ərzində ölkəmizdə həyata keçirilən su sisteminin və kanalizasiya sisteminin təkmilləşdirilməsi işlərinin daha da inkişafına böyük zəmin yaradacaq. Bir həqiqət var ki, 20 il içərisində bu sahədə ölkəmizdə xeyli işlər görülüb. Görülən işləri biz keçmişimizlə doğru bir şəkildə müqayisə edərək, bu günümüz arasındakı fərqi aydın bir şəkildə görməklə gələcəyimizlə əlaqəli yeni arzular və düşüncələrə daha rahat çatmış olarıq.

Mənim düşüncəm budur ki, bəli, bu gün dünyada həmkarlarımın da dilə gətirmiş olduğu su qıtlığı ilə əlaqədar

problemlər var. Bu, sadəcə, bizim ölkənin problemi deyil. Amma digər sahələrdə olduğu kimi, bəzi mövzulara individual yanaşmaya daha çox ehtiyac olduğu düşüncəsindəyəm. Çünki dəfələrcə burada, Milli Məclisdə, – bir misalını verəcəyəm, – seçicisi olduğum Astara rayonunda su və kanalizasiya sistemi ilə əlaqədar fikirləri dilə gətirmişəm.

Bir məqamı, statistikanın vermiş olduğu məlumatları diqqətinizə çatdırmaq istəyirəm. Astara Hirkan Milli Parkı olmaqla, ölkədə hər metrə düşən illik yağış sularına görə ən yüksək yağış suyunun olduğu bölgə olmaqla birlikdə, həm də adambaşına düşən əkinə yararlı kənd təsərrüfatı torpağına görə ən aşağı göstəriciyə sahibdir. Yəni bu, nə deməkdir? Əgər aranda su qıtlığı ilə bağlı problemimiz varsa, ən azından su ehtiyatları yaratmaq imkanımız olan belə yerlərdə, bölgələrimizdə sututarların zamanında istifadəsini, yəni hadisəyə ümumi baxış deyil, hər bir bölgənin individual olaraq inkişafına hansısa imkanlar yaratmaq və daha erkən dönəmdə həmin bölgənin problemini həll etməklə sosial ehtiyacı olan insanların sayının azaldılması və dövlətin imkanlarının başqa bölgələrə yönləndirilməsi kimi bir nəticə əldə etmiş ola bilərik.

İkinci bir məsələ. Astara şəhərində su sisteminin qurulmasına baxmayaraq, – mən bunu bir nümunə verərək demək istəyirəm, – ölkədə yeganə şəhərlərdən biridir ki, Bakı, Sumqayıtdan sonra dəniz sahilində yerləşən üçüncü şəhər olmasına baxmayaraq, bu günə qədər kanalizasiya sisteminin olmaması, əslində, digər bölgə və şəhərlərimizlə müqayisədə sanitar-epidemioloji cəhətdən böyük bir təhlükə yaradır. Bununla əlaqədar əlimizdə dəlillər var. Qrunt sularının qalxması nəticəsində insan sağlamlığı üçün problemlər gətirəcək, eləcə də turizmin inkişafına təhlükələr yarada biləcək həmin kanalizasiya sisteminin...

Dilə gətirmək istədiyim bir məsələ də bütün aidiyyəti qurumların, eləcə də bu gün su-kanalizasiya sisteminin inkişafını saxlayan qurumların dövrün tələblərinə, ölkədə həyata keçirilən islahatlara uyğun bir şəkildə ümumi yanaşma ilə birlikdə, daha individual yanaşmalara ehtiyacının olduğunu da diqqətə çatdırmaqdır.

Bir daha fürsətdən istifadə edərək, bu qanun layihəsinin ölkəmizə faydalı olması ilə birlikdə, bütün millət vəkillərindən qanun layihəsinə dəstək vermələrini xahiş edirəm. Çox sağ olun.

Sədrlik edən. Sağ olun. Məlahət İbrahimqızı. Buyurun, Məlahət xanım.

M.İbrahimqızı. Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli həmkarlar, hörmətli Sadiq müəllim. Mən də həmkarlarımın çıxışlarında səslənən bütün fikirlərə qoşuluram, dəstəkləyirəm və hesab edirəm ki, bu gün müzakirəmizə təqdim olunmuş "Su təchizatı və tullantı suları haqqında" Azərbaycan Respublikası Qanununa dəyişikliklər layihəsi həm ətraf mühitin mühafizəsi, həm də iqlim dəyişikliyi aspektindən ən önəmli qanunlardan biridir. İnşallah, bu qanun qəbul edildikdən sonra elə COP29 ərəfəsində parlamentin də verəcəyi önəmli töhfələrdən biri olacaqdır.

Hörmətli Sahibə xanım, Siz bir sıra prioritet məsələlərlə bağlı vaxtaşırı parlamentdə müxtəlif səviyyələrdə dinləmələrin keçirilməsinin təşəbbüskarısınız. Həmkarlarımın fikirlərindən də görünür ki, burada bununla bağlı nə qədər önəmli, vacib problemlər var. Əlbəttə, hər birimiz belə önəmli qanun layihəsini konseptual olaraq birinci oxunuşda birmənalı olaraq dəstəkləyəcəyik. Amma bizim hər birimizin bununla bağlı, istər su təchizatı, istərsə də tullantı suları haqqında suallarımız var, problemlər var.

Hesab edirəm ki, Dövlət Su Ehtiyatları Agentliyinin də rəsmi nümayəndələri burada olsaydı bizim verdiyimiz suallarla bağlı onlar da açıqlama verərdilər. Məni də bir millət vəkili kimi, təmsil etdiyim bölgədə, eləcə də, bütövlükdə, respublikamızda bununla bağlı olan bir sıra problemlər narahat edir və mən onları qaldırmaq istəyirəm.

Birinci, sual vermək istərdim. Məsələn, şəhərdə saysız-hesabsız "moyka"lar, daha doğrusu, maşınların yuyulması məntəqələri var. Bu barədə indiyə qədər mətbuatda da çox yazıblar. Bir sıra belə məntəqələrdə, – çünki mətbuatda bununla bağlı vaxtaşırı yazılar verirlər, – içməli sulardan istifadə olunur. Buna kim tərəfindən nəzarət olunur? Bu, gələcəkdə bizim qanunda öz əksini tapacaq, ya tapmayacaq?

Çoxmərtəbəli binalarda, yaşayış massivlərində, xüsusi ilə də yeni tikilən binalarda böyük su anbarları var. Bu su anbarlarına kim tərəfindən nəzarət olunur və bu, ümumiyyətlə, hansı formada idarə olunur? Çünki bilirsiniz ki, bu günlərdə insanları çox narahat edən məsələlərdən biri də hepatit A virusunun yayılmasıdır. Əlbəttə, hepatit A infeksion xəstəliyinin, ümumiyyətlə, bütün infeksion xəstəliklərin periodikliyi var. Müəyyən dövrdə yayılmağa çox meyilli olur. Bunu ona da bağlamaq olmaz. Amma, bütövlükdə, bu qanun layihəsində belə vacib məsələ necə tənzimlənəcəkdir?

Hələ uzun illər əvvəl, sovet dövründə Azərbaycanın kəndlərində küçələrdə su kranları olurdu. Biz hamımız rayonlara, kəndlərə gedəndə görürük, bütün kranların başı sınıqdır və buna heç nəzarət yoxdur. Bu qanunda bu, tənzimlənəcək, ya tənzimlənməyəcək?

Mənim təmsil olunduğum Nəsimi rayonunda, 1-ci, 2-ci, 3-cü, 4-cü və 5-ci mikrorayonlarda çox gözəl "Abad həyət" layihələri həyata keçirilib. Demək olar ki, 200-dən

çox. Möhtərəm Leyla xanım Əliyevanın rəhbərlik etdiyi "İDEA" təşkilatı belə möhtəşəm layihələri həyata keçirib, vətəndaşlar hədsiz dərəcədə məmnundur, minnətdardır. Mən də fürsətdən istifadə edib, hörmətli Leyla xanım Əliyevaya təşəkkür edirəm, seçicilərimin təşəkkürünü çatdırıram. Amma yaradılan yaşıllıq zolaqlarının, çəmənliklərin su təchizatı hələ də açıq qalıb. Yaşıllaşdırma idarəsi deyir, bizlik deyil. Keçmiş "Azərsu", indi, təbii, Dövlət Su Ehtiyatları Agentliyi deyir, bizlik deyil, mənzil kommunal idarələri deyir, bizim, ümumiyyətlə, balansımızda, büdcəmizdə pul yoxdur. Ona görə yaradılmış o gözəl layihələrdə su təchizatı ilə bağlı problemlər yaranır, o gözəlliklərin itmə təhlükəsi var.

Nəhayət, mən bir daha Sadiq müəllimə təşəkkür edirəm. Xahiş edərdim ki, bəlkə ikinci oxunuşa qədər bununla bağlı ayrıca bir müzakirə də keçirilsin və müvafiq qurumlardan dəvət olunsunlar. Məktəblərdə və yaxud məktəbəqədər müəssisələrdə su çənləri var. Bu da, bir tərəfdən, içməli sudur, digər tərəfdən, texniki sulardır, tullantı sularıdır.

Son olaraq onu demək istərdim ki, köhnədən inşa olunan, bu gün "xruşovka" kimi tanıdığımız binalarda, – 5 mikrorayonu olan Nəsimi rayonunda da kifayət qədər belə yaşayış massivi var, – texniki suların idarə olunması hədsiz dərəcədə təhlükəli, riskli durumdadır. Fürsətdən istifadə edib, bu bölgəni təmsil edən millət vəkili kimi müvafiq qurumların...

Sədrlik edən. Sağ olun. Mən sessiya başlamazdan əvvəl komitənin iş planı ilə bağlı Sadiq müəllimi qəbul etmişdim. Orada da mən Sizinlə danışmışdım ki, lazım olan halda dinləmələr keçirilsin. Təbii ki, bu mövzu ilə bağlı çox suallar var. Fikirləşin, lazım olsa, – Fərid müəllim,

xahiş edirəm, sonra mənə də xəbər verin, – dinləmə formatında, ya da sizin komitənin geniş tərkibdə keçirilən iclasında bu məsələlərin hamısına baxmaq olar.

Tahir müəllim, deyəsən, Sizin də sözünüz var, sonra yazıldınız. Buyurun.

T.Rzayev. Deputat həmkarlar burada təşəbbüs qaldırdılar. Bu təşəbbüs Sizin tərəfinizdən keçən il qaldırıldı. Sadiq müəllimə də, mənə də tapşırıldı ki, belə bir dinləmə keçirək. Ondan bir həftə sonra cənab Prezidentin sərəncamı oldu ki, bu iki təşkilat birləşdirilsin və bunun əsasında Dövlət Su Ehtiyatları Agentliyi yaradılsın.

Zaur müəllimlə bu məsələ ilə əlaqədar biz bir neçə dəfə danışmışıq. Hələ orada struktur tam təşkil olunmayıb. Ona görə də bizim belə bir qərarımız var ki, Sizin tapşırığınız əsasında biz bu ayın axırında dinləməni keçirək. Mən bunu dedim ki, deputat həmkarlarımız üçün aydın olsun.

Sədrlik edən. Çox sağ olun, Tahir müəllim. Ayın axırına da çox az qalmayıb. Fikirləşin, elə birgə Siz də, Sadiq müəllim də, bu su məsələsi sizin komitənizin əsas məsələlərindən biridir, danışarsınız, sonra xahiş edirəm, mənə də ümumi məlumat verərsiniz.

Hörmətli həmkarlar, çıxış edənlərin siyahısı artıq bitdi. Çox sağ olun. Mən məsələni səsə qoyuram. Buyurun.

Səsvermənin nəticələri	(saat 11.29 dəq.)
Lehinə	100
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	100
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. Bu, 3-cü məsələdir. Azərbaycan Respublikasının Konsul Nizamnaməsində dəyişiklik edilməsi haqqında qanun layihəsi indi müzakirəyə təqdim edilir. Layihəyə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Mən komitənin sədri hörmətli Səməd müəllim Seyidova söz verirəm. Səməd müəllim, buyurun.

S.Seyidov, *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Təqdim olunan qanun layihəsindəki dəyişikliklərin hamısı, əslində, dəqiqləşdirmə və uyğunlaşdırma məqsədi ilə həyata keçirilən dəyişikliklərdir. Konsulluq Nizamnaməsinin 92-ci və 93-cü maddələrində təklif olunan dəyişikliklər, dediyim kimi, texniki xarakter daşıyır. Ona görə burada hər hansı bir mahiyyət üzrə problem yoxdur. Komitəmizdə biz bu məsələni müzakirə etmişik. Bu gün sizdən xahiş edirəm, buna müsbət münasibət bildirəsiniz. Diqqətinizə görə sağ olun.

Sədrlik edən. Çox sağ olun, Səməd müəllim.

Yerdən. *(Eşidilmir.)*

Sədrlik edən. Deyirsiniz, səsə qoyaq, ancaq Fəzail müəllim yazılıb. İndi 1 nəfər yazılanı necə edim? Fəzail müəllim, sözünüz bununla bağlıdır?

Yerdən. *(Eşidilmir.)*

Sədrlik edən. Bəli, buyurun.

F.Ağamalı. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli, dəyərli dostum Səməd müəllim. Əslində, mən bu qanun layihəsinə olduqca ciddi yanaşıram. Çünki həm 92-ci, həm də 93-cü maddələrdə edilən dəyişikliklər Azərbaycan vətəndaşının təhlükəsizliyinə təminat verən və yaranmış

olan təhlükənin qarşısını almağa yönəlmiş olan son dərəcə ciddi dəyişiklikdir. Söhbət nədən gedir?

İstər Azərbaycana gələn ayrı-ayrı vətəndaşlar, – yaddan çıxarmayaq ki, Azərbaycan bu gün dünyanın cəlbedici ölkələrindən biridir, ölkəmizə ayrı-ayrı ölkələrdən çoxsaylı turistlər gəlirlər, – əlbəttə, bu bizim üçün vacibdir, – şübhəsiz, həm bu baxımdan, həm də qida təhlükəsizliyi baxımından ciddi əhəmiyyət kəsb edir. Ayrı-ayrı ölkələrdə kənd təsərrüfatı məhsulları ilə bağlı meydana gələn və kütləvi xarakter alan xəstəliklər bir sıra hallarda nəzərə alınmadan Azərbaycana gəlirdi və müəyyən müddətdən sonra ondakı xəstəliklər üzə çıxarılırdı və Azərbaycanın müvafiq icra orqanı həmin məhsulun Azərbaycana gəlişinə, idxalına qadağa qoyurdu. Artıq bu, daha da konkretləşdirilir, təkmilləşdirilir. 92-ci maddədə, həm də 93-cü maddədə göstərildiyi kimi, bu və ya digər ölkədə karantinlə bağlı bütün xəstəliklər, epidemiyalar ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən bizim konsullar tərəfindən daha operativ, daha dəqiq araşdırılıb, müəyyən olunub, Azərbaycanın müvafiq qurumuna təqdim edilə bilər ki, onlar bununla bağlı müvafiq qərarlar qəbul etsinlər. Bu baxımdan, demək istərdim ki, təqdim edilmiş olan dəyişiklik son dərəcə əhəmiyyətlidir. Bunun əhəmiyyətini diqqətə çatdırıb demək istərdim ki, dəyərli həmkarlarım bu layihəyə məmnuniyyətlə səs versinlər. Sağ olun.

Sədrlik edən. Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

Səsvermənin nəticələri	(saat 11.33 dəq.)
Lehinə	100
Əleyhinə	0

Bitərəf	0
Səs vermədi	0
İştirak edir	100
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 4-cü məsələmizdir. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun, məlumat verin.

B.Məhərrəmov, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar. Bildiyimiz kimi, "İcra haqqında" Qanuna əsasən borclunun əmlakına həbs qoyulması təcrübəsi müəyyən edilib və icra mərhələsində əmlak üzərinə həbs bir qayda olaraq icra məmurunun əsaslandırılmış təqdimatına əsasən, məhkəmə qərarları ilə qoyulur. Lakin məsələ burasındadır ki, məhkəmənin icra məmurunun bu təqdimatlarına baxması üçün faktiki olaraq təkmil prosessual əsaslar mövcud deyil.

Bu gün Mülki Prosessual Məcəllədə təklif edilən dəyişiklik məhz bu boşluğu aradan qaldıracaq. Bu məqsədlə Mülki Prosessual Məcəllənin 231-ci maddəsinin adı yeni redaksiyada verilir. 231.3-cü və 231.4-cü maddələrdə borclunun əmlakı üzərinə həbs qoyulması məzmununda nüanslar daxil edilir. Həmçinin məcəllədə 231.3-1-ci maddə əlavə olunur və nəzərdə tutulur ki: "Məhkəmə borclunun əmlakı üzərinə həbs qoyulması üzrə təqdimata onun

daxil olduğu vaxtdan 5 iş günü müddətində, qətnamənin icrasına möhlət verilməsi və ya onun hissə-hissə icra edilməsi, qətnamənin icra üsulunun və qaydasının dəyişdirilməsi haqqında ərizələrə və icra üzrə icraatın dayandırılması, borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında təqdimatlara onların daxil olduğu vaxtdan 10 iş günü müddətində baxır".

Göründüyü kimi, mütərəqqi bir dəyişiklikdir. Hər bir fiziki və hüquqi şəxsin normativ hüquqi aktlardan irəli gələn hüquq və mənafelərinin məhkəmədə daha effektiv təsdiq olunmasına və qanunçuluğun, ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir. Habelə "İcra haqqında" Qanunun səmərəli işləməsinə töhfə olacaq. Qeyd edilənləri əsas gətirərək dəstəkləməyinizi xahiş edirəm. Çox sağ olun.

Sədrlik edən. Sağ olun. Yazılanlar var. Fazil Mustafa. Buyurun, Fazil müəllim.

F.Mustafa. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Təbii ki, bu, məhkəmənin işini asanlaşdıracaq bir dəyişiklikdir və müsbət bir dəyişiklik kimi qiymətləndirmək olar. Amma bu, həm də müəyyən problemlər yaradacaq dəyişikliklərdir. Bu problemlər nədən ibarətdir? Biz borclunun əmlakı deyəndə, ümumiyyətlə, əmlak hələ tam mənada mülkiyyət mənasına gəlmir. Çünki mülkiyyətin təsdiqi ilə bağlı müəyyən sənədlərin tələb olunduğunu diqqətə alsaq və onun mülkiyyətinin xarakteri, ümumi mülkiyyətdə, yaxud xüsusi mülkiyyətdə olan əmlakdan söhbət gedəndə, onların ayrılması məsələsində, xüsusi ilə ailə hüququ ilə bağlı bölgü məsələsində praktikada tez-tez müəyyən problemlər ortaya çıxır.

Mən həm birinci oxunuşun, həm də təkrar qayıtmayaq

deyə, elə ikinci oxunuşun müddəalarına uyğun şəkildə nəyi təklif etmək istəyirəm? Burada 231.3-cü maddədə nəzərdə tutulan borclunun əmlakı üzərində həbs qoyulması məsələsində biz mütləq "borca adekvat əmlak" sözlərini burada yazmalıyıq. Çünki praktikada nə baş verir? Adamın 1 milyonluq borcu var, onun 5 milyonluq əmlakı üzərində həbs qoyulub. Bu, adekvat olmur axı. Sabah da bunun haqsız ola biləcəyi, ədalətsiz qərar ola biləcəyi üzə çıxa bilər. Vətəndaşın, borclunun xüsusi ilə gələcəkdə hansısa hüquqlarının pozulması üçün bu, zəmin yarada bilər. Ona görə də bu sözlərin, məncə, indidən buraya əlavə olunması lazımdır ki, bundan sui-istifadə etmək mümkün olmasın. Yəni borclunun borca adekvat əmlakı üzərinə həbs qoyulması məsələsi qeyd olunsa, daha doğru olar.

İkinci isə, burada müddətlə bağlı məsələ də müəyyən problem yarada bilər. 10 gün müddətində baxılması. Təbii ki, müddətin dəqiqləşməsi vacibdir. Məncə, burada bizə verilən arayışda qeyd olunur ki, əsaslandırılmış təqdimat olanda məhkəmə buna baxmalıdır. Amma maddədə bu "əsaslandırılmış təqdimat" ifadəsi qeyd olunmur. Məncə, burada elə gəlişi gözəl bir formada hansısa məhkəməyə bir təqdimat verildi və bunun nəticəsində məhkəmə tərəfindən məhdudlaşdırıcı addım atıldı, digər tərəfin, vətəndaşın yenə də hüququnun pozulmasıdır. Ona görə də burada əsaslandırılmış təqdimat olmalıdır.

231.4-cü maddədə də, məncə, biz 10 gün müddəti həm də borclunun əmlakı üzərində həbs qoyulması barədə məhkəmə qaydasında şikayətə baxılmasına da tətbiq etməliyik. Yəni məhkəmə 10 gün müddətində baxır, onun əmlakı üzərində həbs qoyur. Amma artıq borclu şikayət verəndə orada müddət nəzərdə tutulmur. Axı, haqsız ola

bilər. Bir çox hallarda qərarlar haqsız ola bilər. Ona görə də 10 gün müddəti həm də borclunun əmlakı üzərində həbs qoyulması ilə bağlı verdiyi şikayət müddətinə də aid etmək daha ədalətli olar. Diqqətinizə görə sağ olun.

Sədrlik edən. Sağ olun. Fazil müəllim, Siz dediniz, yəni indidən düzəliş edilsin, bu sözlər dəyişsin? Sizin fikriniz ondan ibarətdir ki, əgər indidən dəyişiklik olsa, konseptual baxımdan bu qanun layihəsinə nəsə verəcək, yoxsa necə? Çünki, əslində, Sizin dediklərinizin hamısı ikinci oxunuşa aiddir. Amma Siz dediniz, indidən düzəliş edilsin. İndidən olsa, yenə də deyirəm, yəni konseptual baxımdan nə isə dəyişiləcək onda? Buyurun.

F.Mustafa. Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən fikrimi ümumi dedim ki, ikinci oxunuşa artıq bu düzəlişlər olsa, qanun layihəsini daha rahatlıqla müzakirə etmək olar. Çünki bir çox hallarda ikinci oxunuşdan sonra üçüncü oxunuş ərəfəsində bunu dəyişmək bir qədər çətinlik yaradır. Hər halda qanunvericilik təşəbbüsü subyekti ilə indidən məsələnin müzakirə olunması məsələnin daha çevik həllinə gətirib çıxara bilər. Diqqətinizə görə sağ olun.

Sədrlik edən. Hicran Hüseynova. Buyurun.

H.Hüseynova. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində təklif olunan dəyişikliklə bağlı demək istərdim ki, bu, bütün borclulara, o cümlədən aliment ödəməyən borcluya da şamil olunur.

Hörmətli xanım sədr, demək olar ki, mənə və eləcə də əksər deputat həmkarlarıma edilən şikayətlərin müəyyən bir hissəsi elə bu məsələ ilə bağlıdır. Övladını təkbaşına böyüdən, bir çox hallarda işləməyən və ümidini həmin alimentə bağlayan valideynin, daha çox ananın və onun himayəsində olan uşaqların hüquqlarının müdafiəsi cəmiy-

yətdə çox ciddi problemə çevrilməkdədir. Məlumdur ki, bir çox borclular aylarla, bəzən illərlə aliment ödəməkdən yayınırlar. Bu baxımdan, düşünürəm ki, təqdim olunan qanun layihəsi çox aktualdır. Belə bir dəyişiklik digər borclularla yanaşı, onların da üzərinə məsuliyyət qoyacaqdır və bu dəyişiklik heç bir halda vətəndaşın mülkiyyət hüququnu pozmur. Sadəcə, borclunun öz üzərinə düşən öhdəliyini yerinə yetirməsinə, daha da məsuliyyətli davranmasına da səbəb olur. Bütövlükdə, təklif olunan qanun layihəsinə münasibətim çox müsbətdir. Ona səs verəcəyəm. Çox sağ olun.

Sədrlik edən. Çox sağ olun. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

Q.Həsənquliyev. Çox sağ olun, hörmətli sədr. Mən Bəhruz müəllimə ətraflı təqdimat üçün öz minnətdarlığımı bildirirəm.

Hörmətli sədr, çox təəssüf ki, bu tipli dəyişikliklər sahəvi qanunvericiliyə aid olsa da, ancaq Prezidentin imzası ilə Milli Məclisə daxil olur. Baxmayaraq ki, həm Ali Məhkəmənin, həm də Baş Prokurorluğun qanunvericilik təşəbbüsü hüququ var. Düşünürəm ki, bu tipli təqdimatlar, yəni layihələr də, düzəlişlər də onlar tərəfindən təqdim olunmalıdır və onlar bu təqdimatların müzakirəsində yaxından iştirak eləməlidirlər, deputatlar tərəfindən yarana biləcək suallara da cavab verməlidirlər. Bu bizim komitə səviyyəsində həll olunan məsələ deyil. Ona görə mən plenar iclasda məsələni qaldırıram ki, müvafiq dövlət orqanlarına Milli Məclisin rəhbərliyi tərəfindən sual verilsin ki, siz niyə bunu Prezident Administrasiyasına göndərirsiniz və bu düzəlişlər Prezidentin imzası ilə Milli Məclisə daxil olur?

Hörmətli sədr, çox təəssüf ki, Azərbaycanda qanun-

çuluğun vəziyyəti ilə bağlı ciddi müzakirələrə ehtiyac var. Mən əvvəllər də bu məsələni qaldırmışam. Məhkəmələr tərəfindən həddindən çox işlərə baxılır və bizdə həm hakimlərin sayı hər 100 min nəfərə görə orta Avropa göstəricilərindən dəfələrcə azdır, həm də vəkillərin sayı azdır. Bu vəziyyətin düzəlməsi istiqamətində də radikal addımlar atılmır. 2019-cu ildə cənab Prezident tərəfindən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalandı. Amma hesab edirəm ki, bu istiqamətdə bundan sonra da ciddi addımlar atılmalıdır.

Ölkədə məhkəmə qərarlarının icrası ilə bağlı vəziyyət olduqca acınacaqlıdır, bu barədə bizim insanlarımız məsələ qaldırıb, bir çox hallarda məhkəmə qərarları açıq-açığına icra olunmur. Baxmayaraq, bunun səbəbi soruşulanda onlar bununla əsaslandırırlar ki, işləri çoxdur, ona görə çatdıra bilmirlər. Amma bu, həqiqətdə belə deyil. Yəni bu sahədə də ciddi nizam-intizamın, belə deyək, nəzarətin bərpa olunmasına ehtiyac var. Hakimlər, düşünürəm ki, qəbul etdikləri qətnamələrin icrasına görə birbaşa məsuliyyət daşımalıdırlar və məhkəmə qərarlarını icra etməyənlər haqqında elə həmin hakimlərin özü tərəfindən cinayət işləri başlanmalıdır. Bunun üçün də, dediyim kimi, ölkəmizdə məhkəmə islahatlarının aparılmasına çox böyük ehtiyac var. Bax, indi təqdim olunan bu 231.3-1-ci maddə də. Hesab edirəm, müvafiq dövlət orqanlarının nümayəndələri bura dəvət olunmalıdırlar ki, misal üçün, məhkəmə borclunun əmlakı üzərinə həbs qoyulması haqqında təqdimata onun daxil olduğu vaxtdan 5 iş günü müddətində baxır. Amma tutaq ki, borclunun ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması haqqında təqdimata 10 gün ərzində baxır. Misal üçün, niyə? On gün kifayət qədər elə böyük müddətdir, o çıxıb gedəcək.

Hörmətli sədr, inzibati məhkəmələrdə vəziyyət həddindən artıq ağırdır. Hakimlər həddindən artıq yüklənibiər. İnsanlar aylarca məhkəmə baxışını gözləyirlər və bu zaman da, sözsüz, işə keyfiyyətli baxılmasından da söhbət gedə bilməz. Çox təəssüf ki, bir çox hallarda məhkəmə qərarlarının icrasının yubadılması mənəvi mühitə də, hüquq mədəniyyətinə də öz mənfi təsirini göstərir. Son vaxtlarda aclığa görə cinayət işləri artır. Yaxın qohumlar bir-birini aldadır, bəzən yaxın dostlar, biznes şərikləri bir-birilərini aldadırlar və bu cür davranışlar sanki, bilirsiniz, ictimai əxlaqla pislənməyən bir hərəkətə çevrilir. Ona görə də bir daha söyləyirəm, qanunçuluğun vəziyyəti ilə bağlı ciddi müzakirələrin aparılmasına ehtiyac var. Diqqətinizə görə çox sağ olun.

Sədrlik edən. Sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

Səsvermənin nəticələri	(saat 11.47 dəq.)
Lehinə	99
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	1
İştirak edir	100
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə olan növbəti 3 məsələ ikinci oxunuşda olan qanun layihələridir. 5-ci məsələ “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bilirsiniz ki, layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə müba-

rizə komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən hörmətli Ziyafət Əsgərova söz verirəm. Buyurun, Ziyafət müəllim.

Z.Əsgərov, *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Birinci oxunuşda bu məsələ ilə əlaqədar mən geniş məlumat verdim. Söhbət toplanışlara cəlb ediləcək hərbi qulluqçuların, hərbi vəzifəlilərin sayının müvafiq icra hakimiyyəti ilə razılaşdırılmasından gedir. Birinci oxunuş zamanı məsələnin mahiyyəti ilə əlaqədar elə bir təklif olmadı və komitəmiz yekdilliklə bu məsələnin lehinə səs verərək plenar iclasa çıxarıb. Ona görə də, hörmətli deputatlar, bu məsələyə müsbət münasibət bildirməyinizi xahiş edirəm. Təşəkkür edirəm, sağ olun.

Sədrlik edən. Sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, ikinci oxunuşdur deyə, biz bu qanun layihəsini əsas kimi qəbul etməliyik. Xahiş edirəm, indi bu qanun layihəsinə əsas kimi münasibət bildirəsiniz. Buyurun.

Səsvermənin nəticələri	(saat 11.48 dəq.)
Lehinə	100
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	100
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Görürəm ki, söz demək istəyən yoxdur. Ona görə də biz səsverməyə keçəcəyik. Bu qanun layihəsində bir maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin. Buyurun.

Səsvermənin nəticələri	(saat 11.49 dəq.)
Lehinə	100
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	100
Nəticə: Qəbul edildi	

Çox sağ olun, maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, qanun layihəsinə ikinci oxunuşda münasibət bildirin.

Səsvermənin nəticələri	(saat 11.49 dəq.)
Lehinə	99
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	1
İştirak edir	100
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələ "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Xatırladım ki, bu, bizim 6-cı məsələmizdir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun.

T.Mirkişili, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi haqqında mən birinci oxunuşda geniş

məlumat vermişdim. Xatırladım ki, layihə ödənişli avtomobil yollarından istifadəyə görə ödənilən vəsaitin bölgüsünün və ondan istifadənin hüquqi əsasını yaratmaq məqsədi ilə hazırlanmışdır. Eyni zamanda, layihədə bu ödənişli yollarda tariflərin təsdiq olunması üçün də müvafiq icra hakimiyyətinin razılığı öz əksini tapmışdır.

Hörmətli xanım sədr, birinci oxunuş zamanı hörmətli həmkarlarım məsələ haqqında olmasa da, mövzu haqqında müəyyən çıxışlar etmişlər və həmin deputat həmkarlarıma həm bizim komitə, həm də Hüquq siyasəti və dövlət quruculuğu komitəsi tərəfindən müvafiq arayışlar təqdim olunmuşdur. Layihə birinci oxunuşda dəstəklənmişdir. İkinci oxunuşda da dəstəkləmələrini həmkarlardan xahiş edirəm. Çox sağ olun.

Sədrlik edən. Çox sağ olun. Mən də Sizə təşəkkür edirəm, tək məsələ haqqında yox, ümumiyyətcə, mövzu haqqında məlumatı da çatdırmısınız. Hörmətli həmkarlar, ikinci oxunuşdur, əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

Səsvermənin nəticələri	(saat 11.51 dəq.)
Lehinə	98
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	2
İştirak edir	100
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Yazılanlar var, görürəm. Müzakirəyə keçirik. Siyavuş Novruzov. Buyurun.

S.Novruzov. Təşəkkür edirəm. Hörmətli xanım sədr,

hörmətli deputatlar. Qanun layihəsi çox vacib qanun layihəsidir və mən də ikinci oxunuşa uyğun olaraq, bir neçə məsələyə öz münasibətimi bildirmək istəyirəm.

Birinci növbədə, keçən dəfə də həmkarlarımız tərəfindən burada bir neçə məsələ qaldırıldı. Tıxacların aradan qaldırılması üçün bu cür yolların olmasının vacibliyi, o cümlədən şəhər daxilində belə proseslərin baş verməsi. İndi bilirsiniz ki, şəhərdə artıq 3 yol müəyyənləşib. Biri avtobus, biri velosiped, digəri də maşınlarla əlaqədar olan yoldur və bu darısqallıqda bunların necə idarə olunması məsələsi çox problemlər yaradır. Əgər avtobus yoludursa, hesab olunur ki, bu, mütəmadi boş saxlanılsın və digər maşınlar ora daxil olan kimi cərimələnir. Bunu elə tənzimləmək olar ki, avtobus olmayanda digər maşınlar da o yoldan istifadə etsin, avtobus gələndə isə həmin yolları boşaltsınlar və avtobuslar o yolla hərəkət etsin. Çünki avtobusun hərəkəti vacibdir, orada sərnişinlər var, aydın olan məsələdir, onlar da mənzilbaşına çatmalıdırlar. Hesab edirəm ki, bu məsələyə biz diqqət yetirməliyik.

İndi gələcəkdə bu tramvay xətlərinin çəkilməsi ilə əlaqədar da məsələ qoyulub. Mən hesab edirəm, bir az irəli baxmaq lazımdır. Bu gün göydə uçan taksilər kəşf ediblər və Yaponiyada, Çində, Cənubi Koreyada, Birləşmiş Ərəb Əmirliklərində artıq bu taksilər fəaliyyətə başlayıb. Mən hesab edirəm ki, biz bir balaca bu yöndə yanaşmalıyıq və gələcəyə baxmağa yaxınlaşmalıyıq. Heç təsadüfi olmayacaq ki, bir-iki ildən sonra biz görəcəyik ki, başqa-başqa ölkələrin səmasında artıq o taksilər fəaliyyət göstərir. Biz bu istiqamətlərdə düşünməliyik və nəinki yerüstü nəqliyyat vasitələrindən, yeraltı nəqliyyatdan daha çox istifadə olunmasından, yaranmasından bəhrələnməliyik.

Başqa bir məsələ bu ödənişli yollardan sui-istifadə

edənlərlə əlaqədardır. Mən hesab edirəm, burada bir ictimai qınağa da böyük ehtiyac var. Cərimələr kifayət qədərdir. O gün iki hadisə olub. Biri həmin ödənişli yolda avtomobili yüksək sürətlə tərsinə sürür, digəri isə avtomobili 200-lə sürərək öz şəklini çəkib sosial şəbəkədə yerləşdirir. Nə qədər insanın ailəsinin taleyi bunlardan, bu cür hərəkətlərdən asılıdır. Ona görə də bunları cərimə etməklə yanaşı, bir 15 gün o küçələri, həmin yolları süpürtdürsünlər, bu cür insanlar, heç olmasa, bir az ağıllansınlar. Az qalır sosial şəbəkələrdə bu insanları qəhrəman etsinlər, qəhrəmana çevirsinlər. Əksinə, buna qınaq lazımdır ki, sən başqasının ailəsinin, avtobusda gedənlərin taleyini hansı vəziyyətdə, hansı təhlükədə qoyursan. Ona görə də, hesab edirəm, bu cərimələr məsələsinə də baxılmalıdır. Amma ən əsası onları ictimai işə cəlb etməklə tərbiyə etmək lazımdır ki, bu məsələlər öz həllini tapsın. Təşəkkür edirəm.

Sədrlik edən. Sağ olun. Hörmətli Siyavuş müəllim, bu dediklərinizin hamısı ilə bağlı hansı təzə maddələri təklif edərsiniz ki, ikinci oxunuşa uyğun olsun? Bəlkə bunları ümumiləşdirib Siz bir neçə maddə təklif edəsiniz, ya da mövcud olan maddələrdə hansı isə bir dəyişiklik edəsiniz. Xahiş edirəm, əgər belə fikriniz varsa, sonra Tahir müəllimə təqdim edin. Fəzail Ağamalı. Buyurun. Fəzail müəllim, deyəsən, sualınız, yoxsa, qısa təklifiniz var? Buyurun.

F.Ağamalı. Hörmətli xanım sədr, təklifim var. Amma hər zaman bu avtomobil yolları ilə bağlı millət vəkilləri səviyyəsində çox aktual məsələlər qaldırılır və vətəndaşlarımız da bu məsələləri hərə öz imkanları daxilində müzakirə səviyyəsinə çıxarırlar. Cəmiyyətdə insanları ən çox narahat edən məsələlərdən biri də avtomobil yolları ilə bağlı müəyyən problemlərdir. Ona görə də mən xahiş edirəm, Siz tapşırıq verəsiniz, yaz sessiyası ərzində avto-

mobil yolları ilə bağlı da Milli Məclisdə bir dinləmə keçirilsin. Çox sağ olun.

Sədrlik edən. Sağ olun. Tahir müəllim, sonra Sizinlə bu barədə danışarıq. İltizam Yusifov. Buyurun, İltizam müəllim.

İ.Yusifov. Çox sağ olun. Hörmətli Sahibə xanım, hörmətli deputat həmkarlarım, media təmsilçiləri. "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini mən də dəstəkləyirəm, lehinə səs verəcəyəm. Lakin ikinci oxunuşun tələblərinə uyğun olaraq, bəzi məqamlara toxunacağam. Mövcud "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda mülkiyyətinə görə avtomobil yolları dövlət, bələdiyyə və özəl yollar kimi təsnif edilir. Bəli, biz ölkə olaraq liberal iqtisadiyyat modelini dəstəkləyirik. Dövlətin yükünü azaltmaq üçün özəl sektora geniş yer veririk və dövlət əmlakının idarə edilməsini də bu cür qurumlara həvalə edə bilirik. Bu baxımdan qanunda edilən dəyişikliklərdə, 19.1-ci, "Ödənişli avtomobil yolları", 19.3-cü, "Ödənişli avtomobil yollarından istifadə olunması" və 19.4-cü, "Ödənişli avtomobil yollarından ödənişli əsaslarla istifadə olunmasına xitam verilməsi və ya dayandırılması" maddələrində edilən müvafiq dəyişiklikləri məqbul hesab edirəm. Lakin 19.2-ci, "Ödənişli avtomobil yollarının yaradılması barədə qərarların qəbul edilməsi" maddəsinin yeni redaksiyada verilməsi, hesab edirəm ki, indiki şəraitdə bir qədər çətinliklər yarada bilər. Belə ki, yeni dəyişikliyə görə "avtomagistraldan ödənişli yol kimi istifadə edilməsi, habelə yeni ödənişli avtomagistralın tikilməsi barədə qərarı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qəbul edir". Məlumdur ki, avtomobil

yolları strateji obyektdir, hər bir ölkənin təhlükəsizlik infrastrukturunun əsas elementi hesab olunur. Mövcud "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci, "Avtomobil yollarının təminatı" maddəsində də göstərilir ki: "Avtomobil yolları Azərbaycan Respublikasının ərazisində... habelə dövlətin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsinə xidmət edir". Hətta mövcud qanuna görə ödənişli avtomobil yollarının yaradılması dövlət büdcəsinin, habelə yerli və xarici investorların vəsaitləri hesabına maliyyələşsə də, mən hesab edirəm ki, 19.2-ci maddədə avtomagistraldan ödənişli yol kimi istifadə edilməsi, əsasən də, ödənişli avtomagistralın tikintisi barədə qərarı müvafiq icra hakimiyyəti orqanının, yəni hökumətin özünün qəbul etməsi daha düzgün olardı.

Bir məsələyə də toxunmaq istəyirəm. Bu gün də, birinci oxunuşda da yolların dar olması və tıxaclarla bağlı məsələ səsləndi. Onu da deyim ki, Azərbaycanda, əsasən, Bakı şəhərində tıxacların yaranma səbəbi yolların dar olması və yaxud "Avtomobil yolları haqqında" Qanunla əlaqəli deyil. Qanunda problem yoxdur, sadəcə, yollarımız azdır. 1 kilometr yola düşən avtomobil sayı, yəni sıxlıq yüksəkdir. Bunun üçün də biz dövlət, özəl və bələdiyyə avtomobil yollarının tikintisini aparmalı, çoxaltmalı və inftrastruktur layihələrinin tikintisini davam etdirməliyik. Bilirsiniz ki, dövlət başçısı cənab İlham Əliyev son 20 ildə məhz yol infrastrukturunun genişlənməsinə xüsusi diqqət verib. Yadınızdadırsa, müstəqilliyimizdən əvvəl, o cümlədən Şuşa işğal olunanda Şuşaya cəmi bir yol var idi. Bu gün Şuşa azad ediləndən sonra artıq ora bir neçə istiqamətdə – "Zəfər yolu", digər yollar çəkilir.

Tıxaclar isə ayrı bir problemdir. Bəli, bunun həlli müm-

kündür. Bunun üçün yol hərəkətinin təşkili təkmilləşdirilməlidir və yol hərəkəti haqqında yeni qanun qəbul edilməlidir. Sağ olun.

Sədrlik edən. Çox sağ olun. Bəli, düz deyirsiniz, tıxacların səbəbləri çoxdur, ancaq düşünürəm ki, bir də sürücü mədəniyyəti də yoxdur. Sürücü mədəniyyətinin yüksək olması da çox vacibdir. Aydın Hüseynov. Buyurun.

A.Hüseynov. Çox sağ olun, xanım sədr. Qanunu dəstəkləyirəm, qanun layihəsinə səs verəcəyəm. İkinci oxunuşa uyğun bir fikrimi bildirmək istəyirdim. Əlbəttə, bununla bağlı keçən yığıncağımızda hörmətli Ziyafət müəllim tam açıqlama verdi və biz də onunla tamamilə razıyıq. Bu qanun layihəsinin özündə də, 19.1-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan" ifadələrinin işlənməsini, hesab edirəm ki, gündəmə gətirib fikir almağa dəyməzdi. Sadəcə olaraq, bir təklifim var.

Biz həmişə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan", mötərizədə yazırıq "qurum". Təklif edərdim ki, "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan" ifadəsində "orqan" sözü "Əsas anlayışlar"da "qurum" kimi yazılsın. Onsuz da qanunun daxilində də "qurum" kimi gedir. Sonra bütün hallarda "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan" ifadəsində "orqan" əvəzinə "qurum" sözü yazılsın. Onda qanunun oxunuşu həm asanlaşar, həm də həmin sözün təkrarlanması olmaz. Qanunu dəstəkləyirəm, səs verəcəyəm.

Sədrlik edən. Sağ olun. Vahid Əhmədov. Buyurun, Vahid müəllim.

V.Əhmədov. Çox sağ olun, Sahibə xanım. Hörmətli millət vəkilləri, ümumiyyətlə, biz ödənişli yolla əlaqədar qanun layihəsini qəbul edəndə çox ciddi müzakirələr getdi. Qanun layihəsində maddə var, ödənişli yol o vaxt

istifadəyə verilir ki, alternativ yol da keyfiyyətcə həmin səviyyədə olsun. Çox təəssüflər olsun ki, biz bu ödənişli yolu istifadəyə vermişik, amma ona alternativ olan Bakı–Quba yolu çox pis vəziyyətdədir. Düzdür, yolun bir istiqamətini, Qubadan Bakıya gedən yolu cənab Prezidentin köməkliyi ilə istifadəyə verdik. Amma Bakıdan Qubaya gedən yol çox bərbad vəziyyətdədir. Orada son vaxtlar kifayət qədər hadisələr baş verib. Bu, əsas məsələdir. Mən bununla əlaqədar cənab Baş nazirə də müraciət etmişəm, avtomobil yollarının çəkilişini də onlar müəyyən qədər vəsaitin olmaması ilə əlaqələndirirlər. Amma mən hesab edirəm ki, bu yol mütləq təzədən təmir olunub istifadəyə verilməlidir.

İkinci bir məsələ. Mən bu məsələ ilə, tariflərlə əlaqədar da İqtisadiyyat Nazirliyinə müraciət etmişəm. Bu ödənişli yolda tariflər kifayət qədər yüksəkdir. Mən bu yolu, demək olar ki, ayda 3-4 dəfə gedib gəlirəm. O yolda yalnız beynəlxalq avtomobil şirkətlərinin maşınları işləyirlər. Amma şəxsi avtomobillər yalnız bayram günlərində Bakıdan istirahətə gedən müəyyən qədər insanların maşınlarıdır. Kifayət qədər tariflər yüksək olduğu üçün Şimal bölgəsinin əhalisi faktiki olaraq həmin yoldan istifadə edə bilmir. Ona görə də, mən hesab edirəm ki, tariflər məsələsinə mütləq İqtisadiyyat Nazirliyi tərəfindən baxılmalıdır. Diqqətinizə görə sağ olun.

Sədrlik edən. Sağ olun, Vahid müəllim. Qanun layihəsinə nə isə təklifiniz var?

Yerdən. *(Eşidilmir.)*

Sədrlik edən. Yoxdur. Hörmətli həmkarlar, mən xahiş edirəm, çıxış edənlər həmişə oxunuşların tələblərinə riayət etsinlər. Mənim hamınızın fikirlərinə böyük hörmətim var. Amma yenə də kimin ayrı sözü varsa... İkinci oxunuşda

birinci oxunuşun tələblərinə uyğun olaraq çıxışları da, xahiş edirəm, işçi qaydada edin, vaxtımız getməsin. Bu, bir.

İkincisi, siz bilirsiniz, bu gün işimizə saat 10-da başlamışıq. Əslində, onu nəzərə alaraq, indi fasilə etmək lazımdır. Fasiləsiz. Etiraz etmirsinizsə, biz onda fasiləsiz işləyək.

Yerdən. *(Eşidilmir.)*

Sədrlik edən. İndi isə bu qanun layihəsinin səsvermə proseduruna keçək. Layihədə 4 maddə var. Mən onları iki-iki səsə qoyacağam.

1-ci və 2-ci maddələrə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

Səsvermənin nəticələri	(saat 12.04 dəq.)
Lehinə	102
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	102
Nəticə: Qəbul edildi	

Çox sağ olun, bu maddələr qəbul edildi.

İndi isə 3-cü və 4-cü maddələrə, xahiş edirəm, münasibət bildirin. Buyurun.

Səsvermənin nəticələri	(saat 12.05 dəq.)
Lehinə	103
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	103
Nəticə: Qəbul edildi	

Bu maddələr də qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

Səsvermənin nəticələri	(saat 12.05 dəq.)
Lehinə	103
Əleyhinə	0
Bitərəf	0
Səs vermədi	0
İştirak edir	103
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

7-ci məsələyə keçirik. "Qida təhlükəsizliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Aqrar siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən, Tahir müəllim, Sizə söz verirəm. Buyurun.

T.Rzayev, *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, "Qida təhlükəsizliyi haqqında" Qanuna edilən dəyişikliyə birinci oxunuşda deputat həmkarlarım müsbət münasibət bildirmişlər. İkinci oxunuş üçün komitəyə heç bir rəy və təklif daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

Sədrlik edən. Tahir müəllim, çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

Səsvermənin nəticələri	(saat 12.06 dəq.)
Lehinə	100
Əleyhinə	0

Bitərəf	1
Səs vermədi	1
İştirak edir	102
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi.

Mən gördüm, çıxış etmək istəyən var. Vüqar Bayramov. Buyurun.

V.Bayramov. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Mən çox qısaca olaraq 24-cü maddə ilə bağlı təkliflərimi təqdim etmək istərdim. Layihədən də göründüyü kimi, 24-cü maddə məhz qeydiyyat, eyni zamanda, reyestrin yaradılması ilə bağlıdır. Amma təklif edərdim ki, əvvəla, bu maddədə meyarların daha konkret müəyyənləşdirilməsi və əks olunması həyata keçirilsin. Doğrudur, Nazirlər Kabinetinin 2018-ci il 18 iyul qərarı ilə qaydalar təsdiq olunub. Amma bizim bu gün müzakirə etdiyimiz qanun layihəsində 24-cü maddədə ümumi olaraq meyarlar müəyyənləşib. Onlardan bir istiqamət infrastrukturla bağlıdır. Digər istiqamət təhlükəli qidalarla bağlıdır ki, bu halda imtina verilir. Amma düşünürəm ki, subyektiv yanaşma olmaması üçün daha ölçülə bilən və daha aydın meyarların bu maddədə əksini tapması vacibdir.

Eyni maddə ilə bağlı ikinci təklifim reyestrin elektron portal formasında fəaliyyət göstərməsi və qanunda öz əksini tapmasıdır. Çünki əgər reyestr yaradılırsa, bunun əsas məqsədi həm də həmin reyestr məlumatlarının ictimaiyyətə təqdim olunması olmalıdır. İctimai təqdimat, təbii ki, elektron portal üzərindən həyata keçirilə bilər. Düşünürəm, elektron olaraq məlumatların təqdimatının icbari olması 24-cü maddədə öz əksini taparsa, bu da, təbii ki, şəffaflığın artmasına xidmət etmiş olar. Çox sağ olun.

Sədrlik edən. Çox sağ olun. Komitə nəzərə alar. Bunlarla sonra məşğul olarsınız.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Səsverməyə keçirik. Bu layihədə 2 maddə var.

1-ci maddəyə, xahiş edirəm, münasibət bildirək.

Səsvermənin nəticələri	(saat 12.08 dəq.)
Lehinə	103
Əleyhinə	0
Bitərəf	1
Səs vermədi	0
İştirak edir	104
Nəticə: Qəbul edildi	

Çox sağ olun, 1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəyə, xahiş edirəm, münasibət bildirək. Buyurun.

Səsvermənin nəticələri	(saat 12.09 dəq.)
Lehinə	102
Əleyhinə	0
Bitərəf	1
Səs vermədi	0
İştirak edir	103
Nəticə: Qəbul edildi	

Çox sağ olun, bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

Səsvermənin nəticələri	(saat 12.09 dəq.)
Lehinə	100
Əleyhinə	0

Bitərəf	1
Səs vermədi	0
İştirak edir	101
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz növbəti və sonuncu məsələyə keçirik. Bu, 8-ci məsələdir, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Qeyd edim ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Odur ki, müvafiq Konstitusiya qanununun tələbinə əsasən bir oxunuşda qəbul ediləcək. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Nurlan Həsənova söz verirəm. Nurlan müəllim, buyurun.

N.Həsənov, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli Sahibə xanım, 2021-ci ildə qanunvericiliyimizə "bərpa olunan enerji mənbəyi" anlayışı gətirilmişdir. Məhz buna uyğun olaraq, Şəhərsalma və Tikinti Məcəlləsində uyğunlaşdırma xarakterli dəyişiklik edilir. Deputat həmkarlarımdan layihənin dəstəklənməsini xahiş edirəm.

Sədrlik edən. Çox sağ olun. Heç kim müzakirəyə yazılmayıb. Mən qanun layihəsini səsə qoyuram. Hörmətli həmkarlar, buyurun, münasibət bildirin.

Səsvermənin nəticələri	(saat 12.10 dəq.)
Lehinə	104
Əleyhinə	0
Bitərəf	0

Səs vermədi	0
İştirak edir	104
Nəticə: Qəbul edildi	

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, bununla da bizim iclasımız başa çatdı. Hamıya təşəkkür edirəm. Növbəti iclasın vaxtı haqqında sizə məlumat veriləcək. Sağ olun.

EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

Fatma Yıldırım. Bildiyiniz kimi, möhtərəm cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında aparılan islahatlar nəticəsində Azərbaycan bütün sahələrdə qüdrətli dövlətə çevrilib. Ölkəmizdə milli maraqlara əsaslanmaqla həyata keçirilən iqtisadi siyasət respublikamızın hərtərəfli inkişafında yeni mərhələ açmışdır. Bu gün Azərbaycan dünyada ən böyük infrastruktur layihələrini gerçəkləşdirən dövlət kimi tanınır. Ölkəmizdə uğurla həyata keçirilən infrastruktur layihələri çərçivəsində su təchizatının yaxşılaşdırılması məsələsi daim diqqətdə saxlanılır. Su təsərrüfatı sistemi genişmiqyaslı islahatların ünvanına və ölkə iqtisadiyyatının ayrılmaz bir parçası olaraq qazanılmış nailiyyətlərdə öz payı olan sahəyə çevrilmişdir.

Bu baxımdan Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin ölkə ərazisində gördüyü işlər miqyasına görə ç böyükdür. Əhalinin içməli və suvarma su təminatı.... yaxşılaşdırılmasına göstərilən diqqət nəticəsində çoxsaylı işlər aparılmışdır.

Millət vəkili olaraq təmsil etdiyim Bərdə rayonu Qaraqoyunlu kənd sakinləri tərəfindən Yuxarı Qarabağ kanalının Qaraqoyunlu kəndinin ərazisindən keçən hissəsində sızmanın qarşısının alınması, rayonun Şatırlı və Kürdborakı kəndlərinin sakinləri tərəfindən kəndlərin əhalisini içməli su və suvarma suyu ilə təmin edən artezian quyularında yaranmış problemlərlə bağlı müraciətlərin həll edilməsinə göstərilən köməkliyə görə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin rəhbərliyinə dərin təşəkkürümü bildirirəm. Bərdə rayonunda infrastrukturun inkişaf

etdirilməsi istiqamətində mütəmadi işlər aparılsa da, hələ də həllini gözləyən vacib məsələlər mövcuddur.

Nəzərinizə çatdırmaq istəyirəm ki, millət vəkili olaraq təmsil etdiyim Bərdə şəhər 93 saylı seçki dairəsi üzrə seçicilərim tərəfindən ən çox qaldırılan məsələlərdən biri rayonda kanalizasiya sisteminin olmaması ilə bağlıdır. 2020-ci ildə dövlət qurumunun rəhbərləri ilə görüşdə bu məsələni qaldırmışdıq, lakin keçən müddət ərzində bu istiqamətdə heç bir addım atılmamışdır. 200 mindən çox əhalisi olan Bərdə rayonunda kanalizasiya sisteminin olmaması sakinlərdə çox ciddi narazılıq doğurur. Hazırda ərazi üzrə həm fərdi evlərin, həm də çoxmərtəbəli yaşayış binalarının çirkab suları yeraltı quyulara doldurulur. Vaxtaşırı çirkab sularının texnika ilə daşınması, bəzi hallarda yollara daşaraq dağılması bir çox yoluxucu xəstəliklərin yayılmasına zəmin yaradır. Eyni zamanda, dövlət proqramına əsasən şəhid ailələri və məcburi köçkünlər üçün tikilib istifadəyə verilmiş çoxmərtəbəli yaşayış komplekslərinin bünövrəsinə ciddi zərər verir.

İnsanların sağlamlığına birmənalı təsir göstərən və gündəlik məişət probleminə çevrilmiş bu məsələnin mövcud olması yolverilməzdir və tezliklə aradan qaldırılması olduqca önəmlidir. Ümid edirəm ki, seçicilərim tərəfindən qaldırılan məsələ tezliklə öz həllini tapacaq.

“Su təchizatı və tullantı suları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsinin lehinə səs verəcəm və həmkarlarımı da səs verməyə çağırıram.

Sadiq Qurbanov. Bütöv Azərbaycan ərazisində keçirilən ilk seçkidə müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin möhtəşəm qələbəsi dünyada və regiondakı

siyasi gerçəkliklər fonunda ölkəmizdə yeni inkişaf dövrünün başlandığını göstərir. Bu, sabitlik, sülh və dinamik inkişafı özündə ehtiva edir. Bu parlaq siyasi ideoloji, siyasi və iqtisadi konsepsiya müasir Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf konsepsiyasıdır.

Hazırkı seçki Azərbaycanda siyasi fikir müxtəlifliyi fonunda dialoq və qarşılıqlı hörmətə əsaslanan yeni seçki mədəniyyətini formalaşdırdı. Seçki marafonunda iştirak edən namizədlər seçkidə yüksək səslə qalib gəlmiş Prezidentə zəng vuraraq onu təbrik etdilər və ölkənin gələcək inkişaf perspektivləri ilə bağlı fikir mübadiləsi apardılar. Bu, İlham Əliyevin iyirmi illik hakimiyyəti dönəmində əldə edilmiş münbit siyasi mühitin ən parlaq təzahürüdür.

Uğurlu siyasi varis İlham Əliyevin hakimiyyət dönəmi Azərbaycanın həyatında yeni dövrün başlanğıcını qoydu. Lakin siyasi ənənələrdə doqmalaşmış dəyərlər dominantlıq təşkil edirdi. Dahi siyasətçi Heydər Əliyevlə birlikdə formalaşmasında iştirak etdiyi siyasi dəyərlər sistemini qorumaq, daha da inkişaf etdirmək missiyası İlham Əliyevin üzərinə düşdü. Heydər Əliyev tərəfindən yaradılan bütün siyasi dəyərlər sistemi uğurla qorunaraq daha da inkişaf etdirildi. İlham Əliyevin iyirmi illik hakimiyyəti dönəmində ən böyük qələbəmiz Azərbaycanın ərazi bütövlüyünün tam təmin olunması oldu. Ötən ilin sentyabr ayında Qarabağda Azərbaycan Silahlı Qüvvələrinin erməni təxribatının qarşısının alınması ilə bağlı lokal antiterror tədbirləri ilə ərazilərimiz işğaldan azad edildikdən sonra Xankəndidə və Xocalıda Azərbaycan Bayrağının dalğalanması və Xankəndidə hərbi paradın keçirilməsi isə möhtəşəm qələbəmizin təntənəsi oldu.

İki gün əvvəl bu salonda andiçmə mərasimində Azər-

baycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan xalqına müraciəti gələcək inkişaf perspektivlərimizin yeni yol xəritəsini müəyyənləşdirdi.

Cənab Prezident andiçmə mərasimindəki çıxışında, ümumilikdə, aşağıdakı məsələlərlə bağlı yeni istiqamətləri müəyyənləşdirmişdir:

1. Ordu quruculuğunun daha da möhkəmləndirilməsi, müdafiə potensialının artırılması. Xüsusi Təyinatlı Qüvvələrin və "Komando" silahlı birləşmələrin kontingentinin daha artırılması.

2. Xarici siyasət prioritetlərinin və əsas istiqamətlərinin müəyyən edilməsi. Türk dünyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, digər beynəlxalq və regional təsisatlarla əməkdaşlığın gücləndirilməsi.

3. Peşəkar insan ehtiyatlarının daha da gücləndirilməsi.

4. "Yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi.

5. Bərpa olunan enerji, təbii qaz, nəqliyyat və logistika və digər sahələrdə yeni inkişaf tendensiyalarının gücləndirilməsi.

Eyni zamanda, cənab Prezident insan faktorunun hər şeydən ucada dayandığını önə çəkərək kadr ehtiyatlarının nə dərəcədə əhəmiyyətli olduğunu da diqqətə çatdırdı. Gənclərdən ibarət yeni çağırışlara cavab verən peşəkar kadr potensialının artırılması ilə bağlı cənab Prezidentin davamlı dəstəyi uğurlu gələcəyimizin təminatına çevriləcəkdir.

Bu il dünyada iqlim dəyişmələri ilə bağlı COP29 kimi ən böyük platformaya Azərbaycanın evsahibliyi etməsinə toxunan Prezident yaranmış əlverişli şəraitdən istifadə etməyin vacibliyini vurğuladı. Prezident dünyada dərin kök atmış islamofobiyaya qarşı mübarizədə ön sıralarda olmağımızın zəruri olduğunu diqqətə çatdırdı. Neokolonializmə qarşı mübarizə aparan ölkələrin yanında olma-

lıyıq. Neokolonializmi və o eybəcər tarixdən qalan amili yer üzündən tamamilə silmək üçün öz dəstəyimizi göstəririk və göstərəcəyik.

Prezident xarici siyasət məsələlərinin prioritetləri sırasında türk dünyası və Türk Dövlətləri Təşkilatı ilə münasibətlərin bizim üçün birincilik təşkil etdiyini diqqətə çatdıraraq yüksək coşqu ilə "Bizim ailəmiz türk dünyasıdır!" söylədi.

Prezident İlham Əliyev bildirdi ki, "Biz, ümumiyyətlə, bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq".

Cənab Prezident sosial dövlət fəlsəfəsini vurğuladı, xüsusi olaraq şəhid ailələrinə, müharibə əlillərinə həssas münasibətini çatdırdı. Ölkə ictimaiyyətini isə ayıq olmağa, vətəndaş fəallığını artırmağa, xarici təhdidlər qarşısında məğrur dayanmağa səslədi.

Cənab Prezidentin andiçmə mərasimindəki çıxışı hər bir Azərbaycan məmuru, siyasətçisi və ictimai fəalı üçün yeni dövrün fəaliyyət proqramı olmalıdır.

MÜNDƏRİCAT

16 fevral 2024-cü il..... 3
Edilməmiş çıxışların mətnləri..... 77

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI VƏ STENOQRAMLARI

On beşinci sessiya
Yaz

61-ci cild

16 fevral 2024-cü il

Buraxılışına məsul
H. Babayev

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi 5,5. Sifariş 51. Tiraj 150.